RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 217 (9962) 9 oktyabr 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Gücümüz birliyimizdədir



## İlham Əliyev Türk Dövlətləri Təşkilatının yeni hədəfləri üçün qarşıdakı dövrün yol xəritəsini müəyyənləşdirdi

Oktyabrın 7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə çıxış edən Prezident İlham Əliyev təşkilatın necə yarandığına, qısa zamanda necə formalaşdığına və getdikcə necə bir güc mərkəzinə çevrildiyinə qısa nəzər yetirdi. Azərbaycan Prezidenti həmçinin hər zaman olduğu kimi görülən işləri qiymətləndirdi və qarşıdakı hədəfləri göstərdi.

Prezidentin də söylədiyi kimi, Türk Dövlətləri Təşkilatının rəsmi Zirvə görüşləri ilə yanaşı, qeyri-rəsmi Zirvə görüşlərinin keçirilməsi artıq ənənəyə çevrilib. Ötən il ilk dəfə Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə görüşü və bu il Budapeştdə baş tutmuş görüş mühüm qərarlarla yadda qalıb.

İlham Əliyev qəbul edilən qərarları, həyata keçirilən layihələri yüksək qiymətləndirdi və bildirdi ki, bütün bunlar təşkilatın daha da güclənməsinə xidmət göstərən proseslərdir.

Ümumiyyətlə, TDT-nin Qəbələ zirvəsində Prezident İlham Əliyevin çıxışını həm də təşkilatın qarşıdakı dövr üçün yol xəritəsi də adlandırmaq olar.

Öncə onu vurğulamalıyıq ki, TDT-nin 12-ci Zirvə Görüşü Azərbaycan və türk dünyası üçün əhəmiyyətli bir tarixi an oldu. Bu Zirvə görüşündə Prezident İlham Əliyev yalnız regionda sülh və təhlükəsizliyin təmin edilməsi istiqamətindəki mülahizələrini açıqlamaqla kifayətlənmədi, həm də Türk Dövlətləri Təşkilatının gələcək inkişafına dair strateji hədəflərini vurğuladı.

İlham Əliyevin çıxışında önə çıxan bir neçə mühüm məqam vardır. Bu səbəbdən də Türk Dövlətləri Təşkilatının güclənməsi və təşkilata üzv olan ölkələr arasında daha sıx əməkdaşlığın qurulması istiqamətində bir sıra vacib mesajlar verdi.

6

## Azərbaycan ilə Xorvatiya arasında əlaqələr dostluq və tərəfdaşlıq prinsipləri əsasında inkişaf edir

### Prezident İlham Əliyev Xorvatiya parlamentinin nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Xorvatiya parlamentinin Sədri Qordan Yandrokoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Xorvatiya parlamentinin Sədri Azərbaycana ilk dəfə səfər etdiyini deyərək, paytaxt Bakının gözəlliyinin onda dərin təəssürat hissi yaratdığını bildirdi.

Qordan Yandrokoviç Prezident İlham Əliyevi Azərbaycan dövləti və xalqı naminə gördüyü işlərə və xidmətlərinə görə təbrik etdi. Qonaq həmçinin Vaşinqtonda Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəliyə aparılması istiqamətində əldə edilmiş nəticələr münasibətilə də təbriklərini çatdırdı.

Azərbaycan ilə Xorvatiya arasında əlaqələrin yaxşı səviyyədə olduğunu deyən Qordan Yandrokoviç parlamentlərarası münasibətlərin daha da genişləndirilməsi üçün imkanların mövcud olduğunu vurğuladı. Hər iki ölkədə parlamentlərarası dostluq qruplarının fəaliyyət göstərdiyini qeyd edən qonaq dostluq qrupları ilə yanaşı, müxtəlif parlament komitələri arasında da əməkdaşlığın vacibliyinə toxundu.

Təbriklərə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında əldə olunmuş razılaşmaların tarixi əhəmiyyət kəsb etdiyini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycan ilə Xorvatiya arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə etdi.

Xorvatiyanın Azərbaycanın Avropa İttifaqı və NATO ilə əlaqələrinin inkişafını daim dəstəkləməsi vurğulandı.

Görüşdə ikitərəfli münasibətlərin dostluq və tərəfdaşlıq prinsipləri əsasında inkişaf etdiyi bildirildi, enerji, sərmayələr, turizm və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanların olduğu diqqətə çatdırıldı, ölkələrimizin beynəlxalq parlamentlərarası təsisatlar çərçivəsində əlaqələrinin inkişaf perspektivləri müzakirə olundu.

## Prezident İlham Əliyev qardaş ölkələrə təşəkkür edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qarabağın və Şərqi Zəngəzurun bərpasına dəstək üçün bir daha qardaş ölkələrə təşəkkür edib.

AZƏRTAC xəbər verir ki, bu barədə dövlət başçısı "X" sosial şəbəkəsində paylaşım edib. Paylaşımda deyilir:

**"Qarabağın və Şərqi Zəngəzurun bərpasına dəstək üçün qardaş ölkələrə bir daha təşəkkürümü bildirirəm. Azərbaycan xalqı bu qardaş dəstəyini heç vaxt unutmayacaq".**

## Bizi həm də qlobal layihələr birləşdirir

Qəbələdəki Zirvə görüşündə çıxış edərkən Prezident İlham Əliyev bildirmişdir ki, ölkəmiz təşkilatın işinə dəstək məqsədilə katibliyin hesabına 2 milyon ABŞ dolları məbləğində ianə köçürmüşdür. Dövlətimizin başçısı nəqliyyat və kommunikasiya əlaqələrinin Türk Dövlətləri Təşkilatı çərçivəsində strateji əhəmiyyətə malik olduğunu qeyd edərək demişdir: "Türk dünyasının nəqliyyat, kommunikasiya, tranzit və digər istiqamətlərdə potensialından istifadə məqsədilə görülən işlər qlobal əhəmiyyətli layihələrin icrasına gətirib çıxarıb. Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin fəal iştirakçısıdır. Ölkəmiz Türkiyə ilə Mərkəzi Asiya arasında coğrafi, iqtisadi, nəqliyyat və digər sahələrdə körpü rolunu oynayır. 2022-ci ildən bəri Orta dəhlizlə yükdaşımalar təqribən 90 faiz artıb. Dəhliz boyu tranzit müddətləri əhəmiyyətli dərəcədə azalıb. Xəzərin ən böyük ticarət donanması, yaxın illərdə gücü ildə 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, 9 beynəlxalq hava limanı, regionun ən böyük yükdaşıma aviaşirkəti və digər amillər Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirib.

9

## Dənizkənarı Milli Park "Green Flag Award" beynəlxalq mükafatına layiq görülüb




11

## 44 günlük Vətən müharibəsi



## Düz 5 il əvvəl həmin gün

5

# Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə

**Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 178-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; 2025, № 2, maddə 127, № 3, maddə 232, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 6, maddələr 541, 561; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 avqust tarixli 471 nömrəli və 13 avqust tarixli 478 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na aşağıdakı məzmunda 22-2-ci hissə əlavə edilsin:

"22-2. Məcəllənin 279.2-ci və 279.3-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

22-2.1. elektrik közərmə lampalarının idxalına münasibətdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi adından - bu Siyahının 46.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

22-2.2. elektrik közərmə lampalarının istehsalına münasibətdə Azərbaycan Respublikasının Energetika Nazirliyi adından - energetika naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, nazirliyin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi İdarə Heyətinin sədri, onun müavinləri, departament direktoru, onun müavini, şöbə müdiri, sektor müdiri, baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis, filial rəhbəri, onun müavini, baş müfəttiş, böyük müfəttiş, aparıcı müfəttiş, müfəttiş;

22-2.3.elektrik közərmə lampalarının satışına münasibətdə:

22-2.3.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Energetika Nazirliyi adından - bu Siyahının 22-2.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

22-2.3.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi adından - Agentliyin sədri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, regional bölmənin rəhbəri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi.".

2. Bu Fərman 60 Vt və daha yuxarı gücə malik olan közərmə lampalarına münasibətdə 2026-cı il yanvarın 1-dən, 25 Vt-dan (25 Vt daxil olmaqla) 60 Vt-a qədər gücə malik olan közərmə lampalarına münasibətdə 2026-cı il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 oktyabr 2025-ci il*

# Xorvatiya parlamentinin Sədri Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib





**Ölkəmizdə rəsmi səfərdə olan Xorvatiya parlamentinin Sədri Qordan Yandrokoviçin başçılıq etdiyi nümayəndə heyəti oktyabrın 8-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub, tər çiçəklər düzüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sonra nümayəndə heyəti Şəhidlər xiyabanına gələrək, ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsi önünə əklil qoyub.



Bakının ən hündür nöqtəsindən şəhəri seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verilib.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclis Sədrinin müavini Musa Qasımlı və digər rəsmi şəxslər müşayiət ediblər.

***"Azərbaycan"***

# İspaniyanın dövlət katibi Azərbaycanın bölgədə davamlı sabitlik naminə atdığı addımlar barədə məlumatlandırılıb

**Oktyabrın 8-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İspaniya Krallığının Xarici İşlər, Avropa İttifaqı və Əməkdaşlıq Nazirliyinin ölkəmizdə səfərdə olan xarici və qlobal məsələlər üzrə dövlət katibi Dieqo Martinez-Belio ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan və İspaniya arasında ikitərəfli münasibətlərin cari vəziyyəti və perspektivləri, xüsusilə siyasi dialoqun əhəmiyyəti, iqtisadi, enerji, turizm, nəqliyyat, humanitar və mədəni sahələrdə əməkdaşlıq, eləcə də regional məsələlər müzakirə olunub.

Nazir Ceyhun Bayramov İspaniya ilə münasibətlərin dostluq və qarşılıqlı hörmət prinsiplərinə əsaslandığını vurğulayaraq, iki ölkə arasında mövcud siyasi dialoqun və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini qeyd edib. Liderlər arasında ötən ilin noyabr ayında COP29 çərçivəsində Bakıda, cari ilin may ayında isə Tiranada keçirilmiş görüşün əhəmiyyəti vurğulanıb.

Bununla yanaşı, cari ilin mart ayında Bakıda keçirilmiş Azərbaycan və İspaniya arasında Strateji İqtisadi Dialoqun 1-ci iclasının vacib platforma olduğu bildirilib.

Görüş zamanı tərəflər həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlıq münasibətləri, enerji təhlükəsizliyi, "yaşıl enerji" və nəqliyyat-kommunikasiya layihələri üzrə əməkdaşlıq imkanlarını nəzərdən keçiriblər.

Ceyhun Bayramov postmünaqişə dövründə regionda yaranmış yeni reallıqlar, sülh prosesi, tarixi Vaşinqton görüşünün nəticələri, habelə Azərbaycanın bölgədə davamlı inkişaf və sabitlik naminə atdığı addımlar barədə qarşı tərəfə ətraflı məlumat verib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran beynəlxalq və regional məsələlər barədə fikir mübadiləsi aparılıb.

Eyni gündə həmçinin Azərbaycan Respublikası ilə İspaniya Krallığının Xarici İşlər nazirlikləri arasında növbəti siyasi məsləhətləşmələr keçirilib. Nümayəndə heyətinə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Fariz Rzayev, İspaniya tərəfindən isə Xarici İşlər, Avropa İttifaqı və Əməkdaşlıq Nazirliyinin xarici və qlobal məsələlər üzrə dövlət katibi Dieqo Martinez-Belio başçılıq ediblər.

# Milli Məclisin Sədri Sahibə Qafarova Xorvatiya parlamentinin Sədri ilə görüşüb



**Oktyabrın 8-də ölkəmizdə rəsmi səfərdə olan Xorvatiya parlamentinin Sədri Qordan Yandrokoviçin başçılıq etdiyi parlament nümayəndə heyəti Milli Məclisə gəlib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqlar parlamentin plenar iclas zalı ilə tanış olduqdan sonra Milli Məclisdə Heydər Əliyev Muzeyində olublar, Qordan Yandrokoviç burada Xatirə kitabını imzalayıb.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova və Xorvatiya parlamentinin sədri Qordan Yandrokoviç arasında geniş tərkibdə görüş olub.

Milli Məclisin Sədri Sahibə Qafarova bu səfərin son 11 ildə parlament rəhbəri səviyyəsində ilk səfər olmaqla yanaşı, ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərin inkişafına öz töhfəsini verəcəyinə inamını ifadə edib. Görüşdə ölkələrimiz arasında diplomatik münasibətlərin yaranmasından ötən 30 il ərzində münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, əlaqələrimizin inkişafında ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin mühüm rolu qeyd edilib.

Milli Məclisin Sədri beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimiz arasında qarşılıqlı dəstək və həmrəylikdən məmnunluğunu bildirərək, COP29 çərçivəsində Xorvatiyanın ölkəmizin təşəbbüslərinə verdiyi fəal dəstəyin və Baş nazir Andrey Plenkoviçin bu mühüm tədbirdə iştirakının yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.



Görüşdə Azərbaycanın bir sıra Avropa ölkələrinin enerji təhlükəsizliyinin qorunmasındakı mühüm rolundan danışılıb. Söhbət zamanı parlamentlərarası əlaqələrin inkişaf perspektivləri, iki ölkənin parlament komitələri arasındakı münasibətlərin inkişafı və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Spiker Sahibə Qafarova qonağa həmçinin Ermənistanla sülh müqaviləsinin paraflanması barədə məlumat verib.

Azərbaycanda səfərdə olmaqdan məmnunluğunu bildirən Xorvatiya parlamentinin Sədri Qordan Yandrokoviç Prezident İlham Əliyevlə keçirdiyi görüş barədə təəssüratlarını bölüşüb.

O, 2023-cü ildə Azərbaycanın öz suverenliyini və ərazi bütövlüyünü bərpa etməsinin qürurverici olduğunu və tezliklə Ermənistanla sülh müqaviləsinin imzalanmasının bütün regionun inkişafına mühüm töhfə verəcəyini qeyd edib.

Parlament Sədri ölkələrimiz arasında iqtisadi sahədə mövcud olan münasibətlərin, o cümlədən enerji sektorunda əməkdaşlığın önəmindən danışıb, Azərbaycanın Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində rolunu vurğulayıb.

***"Azərbaycan"***

# Azərbaycan-Xorvatiya əlaqələri dostluq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanır

## Milli Məclisin Sədri Sahibə Qafarova və Xorvatiya parlamentinin Sədri Qordan Yandrokoviç mətbuata bəyanatlarla çıxış ediblər

**Oktyabrın 8-də Milli Məclisin Sədri Sahibə Qafarova və Xorvatiya parlamentinin Sədri Qordan Yandrokoviç ikitərəfli görüşdən sonra mətbuata bəyanatlarla çıxış ediblər.**



Xorvatiya parlamenti Sədrinin Azərbaycana rəsmi səfərinin bir sıra məqamlarla əlamətdar olduğunu söyləyən spiker Sahibə Qafarova qeyd edib ki, bu səfər ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümünə təsadüf edir. Digər tərəfdən isə bu, son 11 ildə iki ölkə arasında parlament sədrləri səviyyəsində həyata keçirilən ilk səfər və görüşdür. Milli Məclisin Sədri bu mənada Qordan Yandrokoviçin səfərinin ölkələrimiz və parlamentlərimiz arasındakı əlaqələrin daha da dərinləşməsinə töhfə verəcəyini bildirib.

Vurğulanıb ki, Azərbaycan-Xorvatiya əlaqələri dostluq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanır. Ötən 30 ildə əlaqələr müxtəlif sahələr üzrə uğurla inkişaf edib və strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. İki ölkə arasındakı fəal siyasi dialoq, ali və yüksəksəviyyəli səfərlər, müntəzəm təmaslar qeyd olunub, xüsusilə dövlət başçıları arasında ikitərəfli görüşlərin qarşılıqlı maraq doğuran məsələlərin və gələcək əməkdaşlıq perspektivlərinin müzakirəsi baxımından olduqca əhəmiyyətli olduğu bildirilib.

Münasibətlərin dərinləşməsində parlamentlər arasında əməkdaşlığın da əhəmiyyəti vurğulanaraq, hər iki parlamentdə dostluq qruplarının fəaliyyət göstərdiyi, nümayəndə heyətlərinin qarşılıqlı olaraq parlamentlərimizin təşkil etdiyi tədbirlərdə, bir sıra beynəlxalq parlament təşkilatlarının işində birgə iştirak etdikləri qeyd olunub. Spiker Sahibə Qafarova parlamentlərimiz arasındakı əlaqələri daha da genişləndirmək üçün yaxşı imkanlar olduğunu bildirərək, Qordan Yandrokoviçin səfərinin də bu imkanlardan istifadə etmək niyyətini təsdiq etdiyini söyləyib. O, görüş zamanı parlamentlər arasında əməkdaşlığın müxtəlif istiqamətləri üzrə müzakirələr aparıldığını bildirib.

Xorvatiya parlamentinin Sədri Qordan Yandrokoviç də bu görüşün parlament sədrlərinin 2014-cü ildən bəri ilk görüşü olduğunu xatırladaraq, səfərin məhz bu il, ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümünə təsadüf edən bir vaxtda baş tutmasını xüsusilə vurğulayıb. Parlament Sədri ölkəmizə səfəri çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşü barədə xoş təəssüratlarını bölüşüb. Xorvatiya və Azərbaycanın intensiv siyasi dialoqa və mükəmməl iqtisadi əlaqələrə sahib olan strateji tərəfdaş və dost ölkələr olduğunu bildirən Qordan Yandrokoviç deyib ki, ölkəsi Azərbaycanın müstəsna iqtisadi nailiyyətlərini, eləcə də onun təkcə Cənubi Qafqazda deyil, həm də regiondan kənarda oynadığı əhəmiyyətli rolu tanıyır və alqışlayır.

Parlament sədrləri arasında görüşdə müzakirə olunan məsələlər haqqında da məlumat verən Qordan Yandrokoviç deyib ki, görüşdə ikitərəfli münasibətlərin müxtəlif istiqamətləri, habelə cari geosiyasi çağırışlar və təhlükəsizlik böhranları, o cümlədən Azərbaycan və Ermənistan arasındakı sülh danışıqlarının hazırkı durumu ilə bağlı fikir mübadiləsi aparılıb. Onun sözlərinə görə, Xorvatiya Azərbaycan və Ermənistan arasında sülh gündəliyi istiqamətində indiyədək əldə edilmiş irəliləyişi qətiyyətlə dəstəkləyir.

Xorvatiya parlamentinin Sədri qanunverici orqanlarımız arasında əməkdaşlığın daha da gücləndirilməsinə xüsusi diqqət yetirmək istədiklərini qeyd edərək, bu səfəri Xorvatiya parlamentinin gələcəkdə bu istiqamətdə yeni addımlar atmağa hazır olduğunun təsdiqi kimi dəyərləndirib. O, bu istiqamətdə atıla biləcək addımlar barədə fikirlərini ifadə edib.

***"Azərbaycan"***

## “Astara şəhərinin 2039-cu ilədək inkişafına dair Baş planı”nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 291** **Bakı şəhəri, 7 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifini nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Astara şəhərinin 2039-cu ilədək inkişafına dair Baş planı” təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki elmi müəssisələrin fəaliyyətinin optimallaşdırılması haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 292** **Bakı şəhəri, 7 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki elmi müəssisələrin fəaliyyətinin optimallaşdırılması və səmərəliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 aprel tarixli 545 nömrəli Sərəncamının 1-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində aşağıdakı publik hüquqi şəxslər yaradılsın:

1.1. Geologiya və Geofizika İnstitutunun və Neft və Qaz İnstitutunun əsasında Geologiya İnstitutu;

1.2. Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun və Torpaqşünaslıq və Aqrokimya İnstitutunun əsasında Coğrafiya İnstitutu;

1.3. Fizika İnstitutunun və Radiasiya Problemləri İnstitutunun əsasında Fizika İnstitutu;

1.4. Akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun və Akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutunun əsasında Kimya İnstitutu;

1.5. İdarəetmə Sistemləri İnstitutunun və Riyaziyyat və Mexanika İnstitutunun əsasında Riyaziyyat İnstitutu;

1.6. Botanika İnstitutunun və Dendrologiya İnstitutunun əsasında Botanika İnstitutu;

1.7. Zoologiya İnstitutunun və Akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunun əsasında Canlı Sistemlərin Tədqiqi İnstitutu;

1.8. Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun, Mikrobiologiya İnstitutunun və Biofizika İnstitutunun əsasında Molekulyar Biologiya İnstitutu.

2. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki:

2.1. Polimer Materialları İnstitutu Sumqayıt Dövlət Universitetinin tabeliyinə verilsin;

2.2. Ekologiya və Təbii Ehtiyatlar İnstitutu (Gəncə), Bioresurslar İnstitutu (Gəncə), Aqrar Problemlər İnstitutu (Gəncə) və Nəbatat Bağı (Gəncə) Gəncə Dövlət Universitetinin tabeliyinə verilsin;

2.3. Təbii Ehtiyatlar İnstitutu (Naxçıvan), Bioresurslar İnstitutu (Naxçıvan) və Batabat Astrofizika Rəsədxanası (Naxçıvan) Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilsin.

3. Bu Qərarın 1-ci hissəsi ilə yaradılan publik hüquqi şəxslərin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

3.1.1. elmi müəssisələrin yenidən təşkili və ləğv edilməsi;

3.2. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə:

3.2.1. bu Qərarın 3.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

4. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi:

4.1. bu Qərarın 1-ci hissəsi ilə yaradılan publik hüquqi şəxslərin nizamnamələrini iki ay müddətində təsdiq etsin;

4.2. publik hüquqi şəxslərin dövlət qeydiyyatına alınması üçün onların nizamnamələri təsdiq edildikdən sonra 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

4.3. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 293** **Bakı şəhəri, 7 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903, № 9, maddələr 1045, 1106, № 10, maddələr 1165, 1178, № 11, maddə 1257, № 12 (I kitab), maddələr 1319, 1324; 2025, № 2, maddə 187, № 3, maddələr 266, 268, № 5, maddə 512; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 4 sentyabr tarixli 245 nömrəli və 16 sentyabr tarixli 268 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 6401 92 100 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 6401 92 100 | - - - üstü rezindən olan | | |
| 6401 92 100 1 | - - - - qoruyucu burunaltılı | cüt | 15 (30.06.2026-cı il tarixinədək 1 cüt üçün 9 ABŞ dolları) |
| 6401 92 100 9 | - - - - digər | cüt | 15 |

1.2. 6401 92 900 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 6401 92 900 | - - - üstü plastmasdan olan | | |
| 6401 92 900 1 | - - - - qoruyucu burunaltılı | cüt | 15 (30.06.2026-cı il tarixinədək 1 cüt üçün 9 ABŞ dolları) |
| 6401 92 900 9 | - - - - digər | cüt | 15 |

1.3. 6401 99 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 6401 99 000 | - - digər | | |
| 6401 99 000 1 | - - - qoruyucu burunaltılı | cüt | 15 (30.06.2026-cı il tarixinədək 1 cüt üçün 9 ABŞ dolları) |
| 6401 99 000 9 | - - - digər | cüt | 15 |

1.4. 6402 91 900 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 6402 91 900 | - - - digər | | |
| 6402 91 900 1 | - - - - qoruyucu burunaltılı | cüt | 15 (30.06.2026-cı il tarixinədək 1 cüt üçün 9 ABŞ dolları) |
| 6402 91 900 9 | - - - - digər | cüt | 15 |

1.5. 6402 99 100 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 6402 99 100 | - - - - üstü rezindən olan | | |
| 6402 99 100 1 | - - - - - qoruyucu burunaltılı | cüt | 15 (30.06.2026-cı il tarixinədək 1 cüt üçün 9 ABŞ dolları) |
| 6402 99 100 9 | - - - - - digər | cüt | 15 |

1.6. 6402 99 390 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 6402 99 390 | - - - - - - digər | | |
| 6402 99 390 1 | - - - - - - - qoruyucu burunaltılı | cüt | 15 (30.06.2026-cı il tarixinədək 1 cüt üçün 9 ABŞ dolları) |
| 6402 99 390 9 | - - - - - - - digər | cüt | 15 |

1.7. 6402 99 930 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 6402 99 930 | - - - - - - - qadın və ya kişi ayaqqabısı kimi eyniləşdirilməsi mümkün olmayan ayaqqabı | | |
| 6402 99 930 1 | - - - - - - - - qoruyucu burunaltılı | cüt | 15 (30.06.2026-cı il tarixinədək 1 cüt üçün 9 ABŞ dolları) |
| 6402 99 930 9 | - - - - - - - - digər | cüt | 15 |

1.8. 6403 91 130 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 6403 91 130 | - - - - - - qadın və ya kişi ayaqqabısı kimi eyniləşdirilməsi mümkün olmayan ayaqqabı | | |
| 6403 91 130 1 | - - - - - - - qoruyucu burunaltılı | cüt | 15 (30.06.2026-cı il tarixinədək 1 cüt üçün 9 ABŞ dolları) |
| 6403 91 130 9 | - - - - - - - digər | cüt | 15 |

1.9. 6403 91 930 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 6403 91 930 | - - - - - - qadın və ya kişi ayaqqabısı kimi eyniləşdirilməsi mümkün olmayan ayaqqabı | | |
| 6403 91 930 1 | - - - - - - - qoruyucu burunaltılı | cüt | 15 (30.06.2026-cı il tarixinədək 1 cüt üçün 9 ABŞ dolları) |
| 6403 91 930 9 | - - - - - - - digər | cüt | 15 |

1.10. 6403 99 330 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 6403 99 330 | - - - - - - - qadın və ya kişi ayaqqabısı kimi eyniləşdirilməsi mümkün olmayan ayaqqabı | | |
| 6403 99 330 1 | - - - - - - - - - qoruyucu burunaltılı | cüt | 15 (30.06.2026-cı il tarixinədək 1 cüt üçün 9 ABŞ dolları) |
| 6403 99 330 9 | - - - - - - - - digər | cüt | 15 |

1.11. 6403 99 930 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 6403 99 930 | - - - - - - qadın və ya kişi ayaqqabısı kimi eyniləşdirilməsi mümkün olmayan ayaqqabı | | |
| 6403 99 930 1 | - - - - - - - qoruyucu burunaltılı | cüt | 15 (30.06.2026-cı il tarixinədək 1 cüt üçün 9 ABŞ dolları) |
| 6403 99 930 9 | - - - - - - - digər | cüt | 15 |

1.12. 7005 10 050 0, 7005 10 250 0, 7005 10 300 0, 7005 10 800 0, 7005 21 250 0, 7005 21 300 0, 7005 21 800 0, 7005 29 250 0, 7005 29 350 0, 7005 29 800 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "15" rəqəmləri "15 (31.12.2030-cu il tarixinədək 1 ton 200 ABŞ dolları)" sözləri ilə əvəz edilsin;

1.13. 7207 11 110 0, 7207 11 140 0, 7207 11 160 0, 7207 11 900 0, 7207 20 110 0, 7207 20 170 0, 7207 20 190 0, 7213 10 000 0, 7213 20 000 0, 7213 91 200 0, 7213 91 490 0, 7214 10 000 0, 7214 20 000 0, 7214 30 000 0, 7214 91 100 0, 7214 91 900 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "5" rəqəmi "5 (31.12.2030-cu il tarixinədək 15%, lakin 1 tonuna 200 ABŞ dollarından az olmamaqla)" sözləri ilə əvəz edilsin;

1.14. 7207 20 150 0, 7213 91 100 0, 7214 99 100 0, 7214 99 310 0, 7214 99 390 0, 7214 99 500 0, 7214 99 710 0, 7214 99 790 0, 7214 99 950 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "15" rəqəmləri "15 (31.12.2030-cu il tarixinədək 15%, lakin 1 tonuna 200 ABŞ dollarından az olmamaqla)" sözləri ilə əvəz edilsin.

2. Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Mülki aviasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 294** **Bakı şəhəri, 7 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Mülki aviasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanının 5.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 861 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddə 467, № 9, maddələr 1090, 1100; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 avqust tarixli 230 nömrəli və 22 sentyabr tarixli 279 nömrəli qərarları) ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nın II bölməsinin 12.6-cı bəndi ləğv edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1115 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 437, 449, 467, № 9, maddə 1100; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 22 sentyabr tarixli 279 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları"ndan "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi" sətri çıxarılsın.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747 (Cild I); 2024, № 1, maddə 101, № 3, maddə 310, № 4, maddə 449, № 5 (II kitab), maddələr 572, 607, № 7, maddələr 895, 915, № 12 (II kitab), maddə 1428) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)"nin cədvəlinin 55-ci hissəsi ləğv edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 dekabr tarixli 315 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1379 (Cild I); 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyi personalının xüsusi texniki vasitələrdən istifadə etməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.2.9-cu yarımbənddə "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi (bundan sonra - RİNN yanında DMAA)" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Mülki Aviasiya Agentliyi (bundan sonra - DMAA)" sözləri ilə əvəz edilsin;

4.2. 2.9-cu, 2.13-cü, 3.7-ci bəndlərdə "RİNN yanında DMAA" sözləri "DMAA" akronimi ilə, 2.10-cu, 2.11-ci və 5.1-1-ci bəndlərdə "RİNN yanında DMAA-nın" sözləri "DMAA-nın" sözləri ilə əvəz edilsin.

5. "Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyasının tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin bəzi məsələləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 2 avqust tarixli 313 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1603 (Cild I); 2024, № 4, maddə 441) 1-ci və 2-ci hissələri ləğv edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 iyul tarixli 292 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (II kitab), maddə 1626 (Cild I); 2024, № 4, maddə 441; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 9 sentyabr tarixli 254 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın 22-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"22. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxs.".

7. "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 435 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2150 (Cild I) 1-ci hissəsinin "Kollegiyanın üzvləri" bölməsində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin direktoru" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Mülki Aviasiya Agentliyinin İdarə Heyətinin sədri" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 avqust tarixli 228 nömrəli, 10 sentyabr tarixli 257 nömrəli, 16 sentyabr tarixli 263 nömrəli, 17 sentyabr tarixli 270 nömrəli və 22 sentyabr tarixli 279 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı"nın 126-cı hissəsində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 iyun tarixli 199 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 789 (Cild I); 2024, № 11, maddə 1246) ilə təsdiq edilmiş "Koronavirus (COVID-19) pandemiyası dövründə Azərbaycan Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar"ın 2.1.4-1-ci yarımbəndində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 9 iyul tarixli 199 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 862 (Cild I) ilə təsdiq edilmiş "Hava limanının nəzarət edilməyən zonalarının təhlükəsizliyinin təmin edilməsi Qaydası"nın 1.3-cü bəndində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 16 iyun tarixli 231 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 6, maddə 672 (Cild I); 2024, № 5 (II kitab), maddə 611, № 9, maddə 1090; 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş "Qeydiyyatdan keçmiş yük agentlərinə və məlum yükgöndərənlərə sertifikat və fərdi kod nömrəsinin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

11.1. 3.1-ci bənddə "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin;

11.2. həmin Qaydaya 1 nömrəli əlavə - "Qeydiyyatdan keçmiş yük agentlərinin (məlum yükgöndərənlərin) sertifikatlaşdırılması üçün ərizə"də "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin;

11.3. həmin Qaydaya 4 nömrəli əlavənin adında "RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ YANINDA" sözləri "RESPUBLİKASI RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİNİN TABELİYİNDƏ" sözləri ilə və sonunda "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 31 oktyabr tarixli 468 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 10, maddə 1179) ilə təsdiq edilmiş "Digər dövlətdə qeydiyyatda olan mülki hava gəmilərinin uçuşa və istismara yararlılığının təmin edilməsi, uçuş heyətinə və uçuş sənədlərinə dair tələblərin həyata keçirilməsi Qaydası"nın 1.6-cı bəndində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 21 noyabr tarixli 490 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 11, maddə 1266) ilə təsdiq edilmiş "Digər dövlətdə qeydiyyatda olan istismarçılar tərəfindən istismar edilən hava gəmilərinə uçuşların təhlükəsizliyi ilə bağlı nəzarətin həyata keçirilməsi Qaydası"nın 1.3-cü bəndində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

14. "Müfəttiş heyətinin aviasiya təhlükəsizliyinin təmin edilməsinə nəzarətin həyata keçirilməsi ilə bağlı təlim keçmə Qaydaları"nın və "Müfəttiş heyətinin uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarətin həyata keçirilməsi ilə bağlı təlim keçmə Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 dekabr tarixli 515 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 12 (I kitab), maddə 1320) aşağıdakı dəyişikliklər edilsin:

14.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Müfəttiş heyətinin aviasiya təhlükəsizliyinin təmin edilməsinə nəzarətin həyata keçirilməsi ilə bağlı təlim keçmə Qaydaları"nın 2.1-ci bəndinin ikinci cümləsində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin;

14.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Müfəttiş heyətinin uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarətin həyata keçirilməsi ilə bağlı təlim keçmə Qaydaları"nın 2.1-ci bəndinin ikinci cümləsində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

15. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 7 yanvar tarixli 2 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 1, maddə 76) ilə təsdiq edilmiş "Digər dövlətdə yerləşən aviasiya personalının hazırlığı ilə məşğul olan tədris-təlim mərkəzlərinin tanınması Qaydası"nın 1.4-cü bəndində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

16. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 19 fevral tarixli 27 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 2, maddə 188) ilə təsdiq edilmiş "Uçuş və kabinə heyətinə təlim keçən təşkilatlara, uçuş və kabinə heyətinin bilik və bacarıqlarını yoxlayan təlimçilərə sertifikatın verilməsi Qaydası"nın 1.3-cü bəndində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

17. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 19 fevral tarixli 28 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 2, maddə 189) ilə təsdiq edilmiş "Hava hərəkəti xidmətlərini təmin edən təchizatçıların, habelə sistemlərin, onların tərkib hissələrinin layihələndirilməsinə, istehsalına və ya texniki xidmətinə cəlb olunan təşkilatların sertifikatlaşdırılması Qaydası"nın 1.4-cü bəndində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

18. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 19 fevral tarixli 29 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 2, maddə 190) ilə təsdiq edilmiş "Hava limanları və (və ya) aerodromların layihələndirilməsi və istismarına dair Tələblər"in 3.2-ci və 25.2-ci bəndlərində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

19. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 19 fevral tarixli 30 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 2, maddə 191) ilə təsdiq edilmiş "Kommersiya hava daşımalarının, sərnişin, baqaj, yük və poçt göndərişlərinin hava daşımalarının həyata keçirilməsi Qaydaları"nın 1.4-cü bəndində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

20. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 20 fevral tarixli 38 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 2, maddə 199) ilə təsdiq edilmiş "Mülki hava gəmilərinin və onların komponentlərinin uçuşa yararlılığının saxlanılmasını idarə edən təşkilatların sertifikatlaşdırılması Qaydası"nın 1.5-ci bəndində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

21. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli 69 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 3, maddə 280) ilə təsdiq edilmiş "Mülki hava limanları və (və ya) aerodromların istismara yararlılıq, aeronaviqasiya təchizatı və təminatı, təhlükəsizlik tələblərinin təminatı baxımından sertifikatlaşdırılması, hava limanlarına və (və ya) aerodromlara uyğunluq sertifikatının alınması, onların dövlət qeydiyyatına alınması Qaydaları"na 3 nömrəli əlavənin "BƏYANNAMƏ" hissəsinin 1-ci bəndində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

22. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 14 aprel tarixli 108 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 4 (I kitab), maddə 396) ilə təsdiq edilmiş "Hava gəmilərinin beynəlxalq uçuş əməliyyatlarının, məşq uçuşlarının və xüsusi xarakterli aviasiya fəaliyyəti ilə bağlı uçuşların həyata keçirilməsi Qaydaları"nın 2.2-ci bəndində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Baş prokuror Səudiyyə Ərəbistanı Krallığında işgüzar səfərdədir

**Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti oktyabrın 8-də Səudiyyə Ərəbistanı Krallığının Nəzarət və Korrupsiyaya Qarşı Mübarizə qurumunun (Nazaha) rəhbəri Mazin İbrahim Əl-Kahmusun dəvəti ilə Ciddə şəhərində təşkil olunan beynəlxalq konfransda iştirak etmək məqsədilə Səudiyyə Ərəbistanı Krallığına işgüzar səfərə gedib.**



İşgüzar səfər zamanı baş prokuror Nazaha qurumunun rəhbəri Mazin İbrahim Əl-Kahmus ilə ikitərəfli görüş keçirib.

Görüşdə Mazin İbrahim Əl-Kahmus dövlətlərimiz arasında bütün sahələrdə daim inkişaf edən tərəfdaşlıq münasibətlərindən, eləcə də ölkələrimizin hüquq-mühafizə orqanları arasında yüksək əlaqələrin daha da inkişaf etməsindən məmnunluq ifadə edib.

Göstərilən qonaqpərvərliyə və səmimi qəbula görə baş prokuror minnətdarlığını bildirərək, Səudiyyə Ərəbistanı Krallığının aidiyyəti səlahiyyətli orqanları ilə və beynəlxalq təşkilatlar çərçivəsində cinayətkarlıqla mübarizə sahəsində, xüsusilə də Nazaha ilə cinayət yolu ilə əldə edilmiş əmlakın bərpası sahəsində ikitərəfli əməkdaşlığın daha da artacağına əminliyini ifadə edib.

Səfər çərçivəsində baş prokuror Kamran Əliyev həmçinin Somali Ədliyyə və konstitusional işlər naziri Hasan Moallim Mahmud Şeyx Əli ilə ikitərəfli görüş keçirib.

Görüş zamanı baş prokuror Somali Prezidenti cənab Hasan Şeyx Mahmudun 12 fevral 2025-ci il tarixli Azərbaycana səfəri, Prezident İlham Əliyevlə görüşü və bu səfər çərçivəsində bağlanmış sazişləri vurğulayaraq, dövlət başçıları arasında olan yüksək əlaqələrin qurumlararası əməkdaşlığın daha da inkişaf etməsinə təkan verməsini bildirib.

Çıxış edən Hasan Moallim Mahmud Şeyx Əli Azərbaycan və Somali arasında artan ikitərəfli əməkdaşlığın cinayətkarlıqla mübarizə, cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım sahəsində birgə səylərə də töhfə verdiyini qeyd edib.

Bundan başqa, səfər çərçivəsində baş prokuror Kamran Əliyev Qətər Dövlətinin baş prokuroru İssa bin Səad əl-Cufali əl-Nuaimi ilə ikitərəfli görüş keçirib.

Görüşdə baş prokuror iki ölkə arasında dostluq əlaqələrinin inkişafından və qurumlararası əməkdaşlığın güclənməsindən məmnunluğunu ifadə edib. Qətər Dövlətinin baş prokuroru İssa bin Səad əl-Cufali əl-Nuaimi həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyini qeyd edərək, iki dövlətin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əmin olduğunu bildirib.

Görüşlərdə Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı fövqəladə və səlahiyyətli səfiri Şahin Abdullayev də iştirak edib.

Nümayəndə heyətinin səfəri davam edir.

# Qafqaz Müsəlmanları İdarəsinin sədrinin Amerika Birləşmiş Ştatlarına səfəri davam edir

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin Amerika Birləşmiş Ştatlarına səfəri davam edir.**



QMİ-dən AZƏRTAC-a bildiriblər ki, A.Paşazadə oktyabrın 7-də Vaşinqtonda ABŞ Beynəlxalq Din Azadlığı Komissiyasının üzvləri ilə görüşüb.

Görüşdə çıxış edən QMİ sədri Azərbaycanda mövcud olan unikal dinlərarası əməkdaşlıq və məzhəblərarası anlaşma mühiti, dövlət-din münasibətlərinin yüksək səviyyəsi barədə ətraflı məlumat verib. Azərbaycanda məzhəblər arasında anlaşmanın uğurlu modelinin Bəhreyn İslamdaxili Dialoq Konfransında nümunə olaraq qəbul edildiyini diqqətə çatdıran A.Paşazadə gələn il Azərbaycanda Müsəlman Ağsaqqalları Şurasının, BMT-nin Sivilizasiyalar Alyansının həmtəşkilatçılığı ilə İslamdaxili dialoqa və islamofobiya ilə mübarizəyə həsr olunmuş mötəbər tədbirlərin keçiriləcəyini vurğulayıb.

ABŞ Beynəlxalq Din Azadlığı Komissiyasının sədri xanım V.Hartzler bu il Azərbaycana səfəri zamanı ölkəmizdə qonaqpərvərlik və inkişaf müşahidə etdiyini bildirib. İslamofobiya ilə mübarizəyə dair ardıcıl konfransların keçirilməsinə toxunan xanım V.Hartzler bu forumların keçirilməsini alqışladıqlarını, bunun real nəticələrinin olmasının mühüm olduğunu deyib. Azərbaycanda şiə məzhəbinin bəzi mənsublarına qarşı guya ayrı-seçkiliklərin olmasından narahatlığını dilə gətirən komissiya sədrinin iradlarına Azərbaycan nümayəndə heyəti dəqiq, tutarlı dəlillərlə cavab verib. Bildirilib ki, söhbət din pərdəsi altında dövlətçiliyə qarşı konkret təhdid, çevriliş cəhdi və terrorun qarşısının alınmasından gedir və burada məzhəb amilinin heç bir rolu yoxdur.

ABŞ Beynəlxalq Din Azadlığı Komissiyasının sədr müavini Asif Mahmud Azərbaycanda Dini Etiqad Azadlığı haqqında qanunla bağlı bəzi iradlarını bildirib, bu qanunun beynəlxalq dini azadlıq standartları ilə uzlaşmayan məqamlara, habelə dini ədəbiyyatın senzuraya məruz qalmasına toxunub. Milli Məclisin deputatı Cavanşir Paşazadə deyib ki, gənc, müstəqil dövlət olaraq özümüzü mənəvi müstəvidə də müdafiə edirik. Dini ədəbiyyat adı altında ölkəyə ekstremist və radikal ədəbiyyat gətirməyə cəhdlər var və bunun qarşısını almaq üçün müvafiq komissiya kitabları nəzərdən keçirir. Ölkəmizdə dövlət-din münasibətləri yüksək səviyyədədir, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsi icmalarla mütəmadi görüşür, onları maraqlandıran məsələləri həll edir.

ABŞ Beynəlxalq Din Azadlığı Komissiyasının üzvü Məhəmməd Elsanusi öz növbəsində Bakıda olarkən keçirdiyi görüşlər barədə danışıb, müsbət inkişafla bağlı məqamlara toxunub. O, narahatedici məqamlardan biri kimi icmaların qeydiyyat məsələsini vurğulayıb, bu prosesin icmaların özlərini azad hiss etməsinin qarşısını aldığına diqqəti çəkib. Şeyxülislam A.Paşazadə dini icmaların qeydiyyatının dövlət tərəfindən aparıldığını, lazım gəldikdə dini mərkəzin öz tövsiyələrini verdiyini xatırladıb. Xüsusi qeyd edib ki, burada məqsəd və məram özlərini dindar kimi qələmə verərək dövlətə qarşı fəaliyyət aparanları əsl dindarlardan ayırd etməkdir. Şeyxülislam komissiya üzvlərini Azərbaycana bir daha gələrək həqiqəti yerində görməyə, ölkəmizi xüsusi müşahidə siyahısından çıxarmağa çağırıb. Xanım V.Hartzler dəvətdən məmnun olacaqlarını deyib.

Azərbaycandakı Alban-udi icmasının sədri Robert Mobili isə diqqətə çatdırıb ki, əksəriyyəti müsəlman olan sekulyar ölkədə xristian dini icma olaraq özlərini əla hiss edirlər. "Azərbaycan dövləti öz diqqət və qayğısını bizdən əsirgəmir, müsəlman xalqı hər zaman bizə dəstək verir. Məbədlərimiz və dilimiz bərpa olunur, müqəddəs kitabımız ana dilimizdə nəşr edilir", - deyə o əlavə edib.

Görüşdə çıxış edən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İcraçı direktoru Rəvan Həsənov Azərbaycanın dünyada artan islamofobiya hallarından narahat olduğunu, eyni zamanda dinlərarası dialoqda, dünyada müsəlman icmaların hüquqlarının qorunmasında maraqlı olduğunu diqqətə çatdırıb. O, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin dini ayrı-seçkiliyin bütün forma və təzahürlərini - islamofobiya, antisemitizm və xristianofobiya ilə mübarizədə oynadığı roldan bəhs edib. Bildirib ki, rəhbərlik etdiyi Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi bu müstəvidə dünyada unikal bir qurumdur.

# "Azərbaycanın müstəqilliyinin bərpası və xarici siyasət strategiyası"



**Oktyabrın 8-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının və YAP Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Azərbaycanın müstəqilliyinin bərpası və xarici siyasət strategiyası" mövzusunda tədbir keçirilib.**

XXI Əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzində keçirilən tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirib ki, bu gün Azərbaycan yerləşdiyi bölgədə baş verən siyasi, iqtisadi və geostrateji proseslərə təsir göstərmə gücünə malik bir ölkəyə çevrilib. Azərbaycan xarici siyasət sahəsində əlaqələrini əhəmiyyətli dərəcədə genişləndirib və beynəlxalq arenada daha güclü bir mövqe tutmağı bacarıb.

B.Nəbiyev söyləyib ki, Azərbaycan beynəlxalq kontekstdə xarici siyasət uğurları, xüsusilə Vətən müharibəsində əldə olunan tarixi Zəfərdən sonra yeni bir geosiyasi mövqe formalaşdırıb.

YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə çıxış edərək Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqının milli maraqlarına əsaslanan xarici siyasət kursundan ətraflı bəhs edib. O qeyd edib ki, müasir Azərbaycan dövlətçiliyinin təməlinin qoyulması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

A.Rəhimzadənin sözlərinə görə, Ümummilli Lider xalqın dəvəti ilə hakimiyyətə qayıdışından sonra ölkəmizin dinamik inkişafının əsas istiqamətlərini müəyyənləşdirdi: "O, Azərbaycanı parçalanmaq və dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən xilas etdi. Ölkənin iqtisadi qüdrəti artdı, siyasi mövqeyi möhkəmləndi. Azərbaycan beynəlxalq aləmdə müstəqil dövlət kimi varlığını təsdiqlədi, müstəqil siyasəti ilə yerini və rolunu möhkəmləndirdi. Beynəlxalq təşkilatlar səviyyəsində əlaqələr yüksələn xətt üzrə inkişaf etdi. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının əsası qoyuldu. 1995-ci ildə ümumxalq səsverməsi ilə yeni Konstitusiyanın qəbul edilməsi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində dönüş mərhələsi oldu. Bu gün Azərbaycan konstitusiyanın tələblərinə və suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

YAP Veteranlar Şurasının üzvü Arif Qaraşov Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında xidmətlərindən, məqsədyönlü siyasətinin əhəmiyyətindən danışıb. O qeyd edib ki, Azərbaycanın müstəqillik illərində həyata keçirdiyi xarici siyasət ölkəmizin dayanıqlı inkişafının və regional sabitliyin təminatçısıdır. Bu siyasətin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur: "Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi dövr həm də milli oyanışın, tərəqqinin və müstəqil dövlət quruculuğunun əsas mərhələsi kimi yadda qalıb. Məhz Heydər Əliyevin qurucusu olduğu müstəqil Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edir, həm regional, həm də qlobal səviyyədə etibarlı tərəfdaş kimi tanınır".

YAP Təftiş Komissiyasının üzvü, Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov qeyd edib ki, 1991-ci il oktyabrın 18-də "Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbul olunması ilə xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşdu.

Səməd Seyidov vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə müstəqilliyimizin təhlükə altına düşməsinin qarşısı alındı. Heydər Əliyevin xarici siyasətinin müdrik əsasları ölkəmizin beynəlxalq mövqeyinin möhkəmlənməsinə və gələcək nəsillər üçün sülh, təhlükəsizlik və tərəqqi mühitinin yaradılmasına zəmin yaratdı: "Prezident İlham Əliyevin rəhbərliyi ilə uzun illər həm iqtisadi, siyasi, hərbi, həm də diplomatik sahədə həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir ki, Azərbaycan Vətən müharibəsində inamlı Qələbə qazandı, lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyi tam bərpa olundu".

Tədbir interaktiv formada davam edib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Azərbaycan və Macarıstan Konstitusiya məhkəmələri arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinə dair müzakirələr aparılıb

**Oktyabrın 8-də Azərbaycanın Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev ölkəmizdə işgüzar səfərdə olan Macarıstanın Konstitusiya Məhkəməsinin hakimi Akoş Kozma və Baş katibi Vivien Kozma ilə görüş keçirib.**



Bu barədə AZƏRTAC-a Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, qonaqları salamlayan F.Abdullayev vurğulayıb ki, Azərbaycan və Macarıstan arasında bir çox sahələrdə olan sıx əməkdaşlıq Prezident İlham Əliyev və Macarıstanın Baş naziri Viktor Orban arasında formalaşmış qarşılıqlı etimad və anlaşmaya əsaslanır və bu iki dövlət arasında olan münasibətlərin bütün sahələrdə möhkəmlənməsinə mühüm zəmin yaradır.

Qeyd olunub ki, Azərbaycan və Macarıstan arasında formalaşmış sıx münasibətlər məhkəmə-hüquq sahəsində də əməkdaşlığın genişlənməsinə töhfə verir. Xüsusilə konstitusiya nəzarətinin effektivliyi, o cümlədən vətəndaşların Konstitusiyada təsbit edilmiş hüquqların təmin edilməsi mexanizmlərinin tətbiqi üzrə təcrübə mübadiləsi hər iki məhkəmənin fəaliyyəti üçün önəmlidir.

Görüş zamanı Azərbaycan Konstitusiya Məhkəməsinin fəaliyyəti, qərar qəbuletmə proseduru, məhkəmənin bir sıra hüquqi mövqeləri barədə ətraflı məlumat verilib, hüquqi dövlətin inkişafında Konstitusiya məhkəmələrinin rolu, Konstitusiya məhkəmələri arasında əməkdaşlığın mövcud vəziyyəti və gələcək inkişaf məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Daha sonra Akoş Kozma səmimi qəbula görə təşəkkürünü bildirib, Azərbaycanın Konstitusiya Məhkəməsi ilə əməkdaşlığın faydalı olduğunu vurğulayıb.

Görüşdə həmçinin Konstitusiya Ədalət Mühakiməsi üzrə Dünya Konfransı, Avropa Konstitusiya Məhkəmələri Konfransı və digər beynəlxalq konstitusiya ədalət mühakiməsi sahəsində qurumlar çərçivəsində inkişaf etdirilməsinin vacibliyi qeyd edilib.

Tədbirin sonunda qonaqlar Konstitusiya Məhkəməsinin binası ilə tanış olublar.

# Dünya Bankının nümayəndələri ilə Böyük qayıdış çərçivəsində əməkdaşlıq məsələləri müzakirə edilib

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Dünya Bankının nümayəndə heyəti ilə görüşüb.**



Dövlət komitəsindən AZƏRTAC-a bildirilib ki, qonaqlara Böyük Qayıdışa dair I Dövlət Proqramının Tədbirlər Planı çərçivəsində keçmiş məcburi köçkünlərin dayanıqlı məskunlaşmasının təmin edilməsi ilə bağlı komitə tərəfindən həyata keçirilən işlər barədə məlumat verilib. Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan bərpa-quruculuq işləri məcburi köçkünlərin təhlükəsiz şəraitdə, könüllü və ləyaqətlə doğma yurda geri qayıdışına şərait yaradır. Bununla yanaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da diqqəti və qayğısı sayəsində məcburi köçkünlərin sosial müdafiəsinin təmin olunması, yaşayış şəraitinin yaxşılaşdırılması, məşğulluğunun artırılması istiqamətində zəruri tədbirlər icra edilir.

Əhalinin ləyaqətli yaşayışının təmin edilməsi, maddi rifah halının yüksəldilməsi üçün kompleks tədbirlər həyata keçirilir. Dünya Bankı ilə birgə keçirilən layihə də doğma yurdlarına qayıtmağa hazırlaşan köçkünlərin məşğulluğunun təmin edilməsi baxımından əhəmiyyətlidir.

Qeyd edilib ki, 18 şəhər və rayonu əhatə edən layihə çərçivəsində keçirilən təlimlərdə 800-ə yaxın məcburi köçkün iştirak edib. Layihə zamanı xüsusilə qadınların iqtisadi fəallığının artırılmasına diqqət ayrılıb. Əlilliyi olan 30-a yaxın keçmiş məcburi köçkün də layihədən faydalananlar arasındadır. Layihə çərçivəsində qənnadçı, dərzi, saç ustası, mühasibatlıq, qrafik dizayn da daxil olmaqla 60-dan çox peşə üzrə təlimlər təşkil olunub, 257 nəfərə peşə istiqamətinə uyğun avadanlıq verilib. Dövlət komitəsinin sədri vurğulayıb ki, layihənin icrasına cəlb edilmiş keçmiş köçkünlər artıq doğma yurda qayıtdıqdan sonra hansı peşə ilə məşğul olacağını bilir, bu da dayanıqlı məskunlaşmaya müsbət töhfə verir.

Dünya Bankının nümayəndələri - "Məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması layihəsi"nin Dünya Bankı tərəfindən layihə rəhbəri Erik Koldvel Conson, Dünya Bankının əməkdaşı Sabina Anne Espinoza, Dünya Bankının Azərbaycandakı fəaliyyəti ilə əlaqəli nümayəndəsi Xalisa Şahverdiyeva məcburi köçkünlərlə bağlı əməkdaşlığın əhəmiyyətini vurğulayıb və bundan məmnunluqlarını ifadə ediblər.

Erik Koldvel Conson bildirib ki, layihə yüksək səviyyədə icra edilib, əldə edilən nəticələr nəzərdə tutulandan xeyli çoxdur: "İnanırıq ki, layihəyə cəlb edilmiş keçmiş məcburi köçkünlər doğma yurdlarına qayıtdıqdan sonra əldə etdikləri bacarıqlardan yararlanacaq, kiçik bizneslərini qurub inkişaf etdirəcəklər".

# Gəncədə III MDB Oyunlarının bağlanış mərasimi keçirilib

**Azərbaycanın ilk dəfə evsahibliyi etdiyi III MDB Oyunlarının bağlanış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Gəncə Stadionunda təşkil olunan tədbir bədii hissə ilə başlayıb. Yarışlar haqqında ümumi videoçarx nümayiş etdirilib.

Sonra III MDB Oyunlarının Təşkilat Komitəsinin sədri Samir Şərifov yarışların uğurla başa çatdığını bildirib. O deyib: "On bir gün ərzində Oyunlara evsahibliyi edən Gəncə, Şəki, Qəbələ, Yevlax, Mingəçevir, Göygöl və Xankəndi şəhərləri möhtəşəm idman bayramının şahidinə və bilavasitə iştirakçısına çevrilib. Müstəqil Dövlətlər Birliyinə daxil olan 8 ölkənin və Oyunlara qatılan daha 5 ölkənin idmançıları 23 idman növü üzrə yarışlarda öz məharətlərini, əzmkarlıqlarını nümayiş etdirdilər. Onlar 235 dəst fərdi və komanda mükafatları uğrunda mübarizə apararaq milyonlarla idmansevərə unudulmaz sevinc, həyəcan, həmçinin qürur dolu anlar yaşatdılar. Bu möhtəşəm idman bayramının ərsəyə gəlməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə idmanın inkişafına göstərdiyi qayğının təzahürüdür. Əminliklə deyə bilərik ki, Azərbaycanda keçirilən III MDB Oyunlarının təşkilində ən yüksək standartlar təmin edilib".

Ardınca III MDB Oyunlarının bayrağı endirilib. Sonra Dövlət Himni səsləndirilib.

Tədbir bədii hissə ilə davam edib.

Azərbaycan Oyunları ümumilikdə 184 medalla başa vurub. Bunların 33-ü qızıl, 56-sı gümüş, 95-i isə bürünc mükafatdır. Ölkəmiz bu göstərici ilə ümumi medal sıralamasında 2-ci yeri tutub. İlk sırada Rusiya qərarlaşıb. Beləliklə, Azərbaycan idmançıları 2021-ci ildən təşkil olunan MDB Oyunlarında ən yaxşı nəticəsinə imza atıb. Ölkəmiz I Oyunlarda 60 (16 qızıl, 16 gümüş, 28 bürünc), ikincidə isə 62 (10 qızıl, 17 gümüş və 35 bürünc) medal əldə etmişdi.

III MDB Oyunlarına Azərbaycanın yeddi şəhəri - Gəncə, Şəki, Qəbələ, Yevlax, Mingəçevir, Göygöl və Xankəndi evsahibliyi edib.


















# Xocalının Xanyurdu kəndinə daha 18 ailə köçürülüb








**Oktyabrın 8-də Xocalının Xanyurdu kəndinə növbəti köç olub.**

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-ın bölgə müxbirinə verilən xəbərə görə, ölkəmizin müxtəlif şəhər və rayonlarında müvəqqəti məskunlaşmış 69 nəfərdən ibarət 18 ailə bu gün Xanyurdu kəndinə qayıdıb.

Rəsmilər sakinləri doğma kəndlərinə qayıdışları münasibətilə təbrik edib, yeni tikilmiş evlərinin açarlarını onlara təqdim ediblər.





Qeyd edək ki, Xanyurdu kəndində sakinlər üçün müasir standartlara uyğun fərdi evlər inşa olunub, elektrik, qaz, su təchizatı, rabitə və internet infrastrukturu tam şəkildə təmin edilib. Bu günədək Xocalı rayonunun Xanyurdu kəndinə 69 ailədən ibarət 237 nəfər keçmiş məcburi köçkün köçürülüb.

## ZƏFƏR gündəliyi

## 9 oktyabr 2020-ci il

# İlham ƏLİYEV: "Artıq status-kvo deyilən məsələ və təmas xətti yoxdur"



Oktyabrın 9-da bütün cəbhəboyu gərgin döyüşlər davam edib.

Azərbaycan Ordusunun bölmələri mühüm istiqamətlərdə düşmənə atəş zərbələri endirərək onun hərəkət fəaliyyətini tam məhdudlaşdırıb və aktivliyinin qarşısını qətiyyətlə alıb. Görülən tədbirlər nəticəsində düşmən qoşunları arasında idarəetmə və qarşılıqlı əlaqə itib, bölmələri arasında nizamsızlıq yaranıb, şəxsi heyətinin intizamı pozulub, döyüş mövqelərinin tərk edilməsi kütləvi hal alıb.

### Düşmənin zirehli texnikaları tam işlək vəziyyətdə ələ keçirilib

Azərbaycan Ordusunun bölmələri mühüm istiqamətlərdə düşmənə atəş zərbələri endirərək onun xeyli sayda hərbi texnikasını məhv edib.

Düşmən tərəfindən döyüş meydanında tərk edilən zirehli texnikalar isə bölmələrimiz tərəfindən tam işlək vəziyyətdə ələ keçirilib.

Ordumuzun düşmənin hərbi hədəflərinə və hərbi texnikasına dəqiq zərbələri Ermənistan silahlı bölmələrini pərən-pərən salıb.

Döyüş əməliyyatları zamanı düşmənin atıb qaçdığı hərbi texnikalar Azərbaycan Ordusunun hərbi texnikasının rəngində rənglənib.

### Mingəçevir istiqamətinə atılan ballistik hədəf məhv edilib

Düşmən Goranboy, Tərtər, Ağdam, Bərdə, Ağcabədi rayonlarının ərazilərini intensiv atəşə tutub.

Ermənistan ərazisindən Mingəçevir istiqamətinə atılan ballistik hədəf Azərbaycan HHM sistemləri tərəfindən aşkar edilərək 20 kilometrdən artıq hündürlükdə məhv edilib.

Bununla yanaşı, düşmənin radioelektron mübarizə vasitələri sıradan çıxarılıb.

### Müzəffər Komandandan müjdə: "Hadrut qəsəbəsi azad edilib"

Prezident İlham Əliyev xalqa müraciət edərək növbəti müjdələrini verib. Ali Baş Komandan bildirib ki, müzəffər Azərbaycan Ordusu bir neçə yaşayış məntəqəsini işğaldan azad edib - Hadrut qəsəbəsi, Çaylı kəndi, Yuxarı Güzlək kəndi, Gorazıllı kəndi, Qışlaq kəndi, Qaracallı kəndi, Əfəndilər kəndi, Süleymanlı kəndi, Sur kəndi.

Prezident İlham Əliyev bu kəndlərin və Hadrut qəsəbəsinin işğaldan azad edilməsini tarixi qələbə adlandırıb, həmçinin Azərbaycan Ordusu tərəfindən məhv edilmiş və hərbi qənimət kimi götürülmüş Ermənistanın hərbi texnikasının siyahısını açıqlayıb - 16 komanda məntəqəsi, 196 tank, 38 BM-21, 1 "Uraqan", 10 özüyeriyən artilleriya qurğusu - onlardan 8-i "Akasiya", 2-si "Qvozdika", 36 piyadaların döyüş maşını, 24 artilleriya batareyası, 2 RM və ya hava hücumuna qarşı müdafiə vasitəsi, 2 "S-300" kompleksinin buraxıcı qurğusu, 25 OSA zenit-raket kompleksi, 2 KUB zenit-raket kompleksi, 4 "Repelend" radio-texniki maneə vasitəsi, 136 top, 56 minaatan, 1 TOS-1A odsaçan sursatı, 2 radiolakasiya stansiyası, 1 "Kalçuqa" anteni.

Hərbi qənimət kimi götürülmüş texnikalar - 18 tank, 4 top, 22 piyadaların döyüş maşını, 12 minaatan, 4 UAZ maşını, 1 ekskavator, 27 "İqla" kompleksi, 1 ZİL maşını, 9 QAZ maşını.

Ali Baş Komandan bir daha qətiyyətlə vurğulayıb ki, artıq status-kvo deyilən məsələ və təmas xətti yoxdur. Azərbaycan əsgərinin qabağında heç kim heç nə edə bilməz: "Biz torpaqlarımızı azad edəcəyik, ərazi bütövlüyümüzü bərpa edəcəyik! Düşməni ondan sonra da qovacağıq".

### Emmanuel Makron yenə İlham Əliyevə zəng edib

Fransa Prezidenti Emmanuel Makron növbəti dəfə Prezident İlham Əliyevə telefonla zəng edib.

Dövlət başçıları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaranmış vəziyyəti müzakirə ediblər.

### İlham Əliyev Ermənistana çıxış yolunu göstərib

Prezident İlham Əliyevin "Sky News" və "CNN International" televiziya kanallarında müsahibələri yayımlanıb.

İlham Əliyev bir daha Azərbaycana qarşı səsləndirilən ittihamlara faktlarla, sübutlarla cavab verərək deyib ki, həmsədrlərin 28 illik "vasitəçilik" missiyası bir nəticə verməyib.



ATƏT-in Minsk qrupunun 1992-ci ildən bu yana passiv formada "fəaliyyət"i bu gün baş verənlərə gətirib çıxarıb. Bu vasitəçilik Ermənistanı onlara məxsus olmayan əraziləri tərk etməyə məcbur etmək üçün yetərli olmayıb. Azərbaycan məsələni bu gün özü həll edir.

Prezident həmçinin müharibənin hansı şərtlər əsasında dayandırılmasına da aydınlıq gətirərək deyib ki, danışıqlar münaqişənin siyasi həllinə və işğal olunmuş ərazilərin boşaldılmasına gətirib çıxarmalıdır: "Biz sülh yolu ilə həll istəyirik, amma həll. Biz həll istəyirik, imitasiya yox, daha 30 il ərzində boş sözləri yox, praktiki addımları, vaxt cədvəlini, insanlarımızın evlərinə nə vaxt qayıdacağını, onlar üçün təhlükəsizlik zəmanətinin nədən ibarət olacağını və bizim necə barışacağımızı bilmək istəyirik. İki millət barışmalıdır. Biz qonşuyuq. Biz əbədi olaraq düşmənçilik şəraitində yaşaya bilmərik. Bu, dayandırılmalıdır. Lakin tarixi həqiqət və beynəlxalq hüquq əsasında dayandırılmalıdır".

### Erməni hərbi qulluqçuları bir-birilərini güllələyiblər

Saat 20:00 radələrində Ermənistan-Azərbaycan dövlət sərhədinin Daşkəsən sahəsində yerləşən Azərbaycan Ordusunun müdafiə mövqelərindən Ermənistan ərazisində atışma səsləri və partlayış müşahidə olunub.

Belə ki, Ermənistanın Vardenis rayonunun Günəşli və Ağyoxuş kəndlərində yerləşən mövqelərindəki hərbi qulluqçular əvvəlcə müxtəlif atıcı silahlardan bir-birinə atəş açıblar. Bir az sonra isə Günəşli kəndində partlayış baş verib, yanğın başlayıb.

Baş verən insidentə Azərbaycan Ordusu bölmələrinin heç bir aidiyyəti yoxdur. Bu təxribat erməni xalqının və beynəlxalq aləmin diqqətini Ermənistan rəhbərliyinin hərbi və siyasi meydanda uğradığı iflasdan yayındırmaq məqsədi daşıyır.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***



# Gücümüz birliyimizdədir



## İlham Əliyev Türk Dövlətləri Təşkilatının yeni hədəfləri üçün qarşıdakı dövrün yol xəritəsini müəyyənləşdirdi

**"Bu gün Türk Dövlətləri Təşkilatı, sadəcə, əməkdaşlıq platforması deyil, ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşır. Təşkilatımızın beynəlxalq səviyyədə nüfuzunun artması məmnunluq doğurur. Ortaq tarixi və etnik köklərimiz, müştərək milli-mənəvi dəyərlərimiz bizi bir ailə kimi birləşdirir. Ölkəmiz təşkilatın işinə dəstək məqsədilə Katibliyin hesabına 2 milyon ABŞ dolları məbləğində ianə köçürmüşdür. Daxili siyasi və iqtisadi sabitlik, əhəmiyyətli geostrateji mövqe, müsbət demoqrafiya və gənc əhali, nəqliyyat-logistika sahəsində böyük imkanlar, təbii resurslar, habelə hərbi və hərbi-texniki sahədə artan potensial TDT-ni qlobal arenada vacib aktora çevirir".**

### Görülən işlər, qarşıdakı strateji hədəflər

Oktyabrın 7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə çıxış edən Prezident İlham Əliyev təşkilatın necə yarandığına, qısa zamanda necə formalaşdığına və getdikcə necə bir güc mərkəzinə çevrildiyinə qısa nəzər yetirdi. Azərbaycan Prezidenti həmçinin hər zaman olduğu kimi görülən işləri qiymətləndirdi və qarşıdakı hədəfləri göstərdi.

Prezidentin də söylədiyi kimi, Türk Dövlətləri Təşkilatının rəsmi Zirvə görüşləri ilə yanaşı, qeyri-rəsmi Zirvə görüşlərinin keçirilməsi artıq ənənəyə çevrilib. Ötən il ilk dəfə Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə görüşü və bu il Budapeştdə baş tutmuş görüş mühüm qərarlarla yadda qalıb.

İlham Əliyev qəbul edilən qərarları, həyata keçirilən layihələri yüksək qiymətləndirdi və bildirdi ki, bütün bunlar təşkilatın daha da güclənməsinə xidmət göstərən proseslərdir.

Ümumiyyətlə, TDT-nin Qəbələ zirvəsində Prezident İlham Əliyevin çıxışını həm də təşkilatın qarşıdakı dövr üçün yol xəritəsi də adlandırmaq olar.

Öncə onu vurğulamalıyıq ki, TDT-nin 12-ci Zirvə görüşü, Azərbaycan və türk dünyası üçün əhəmiyyətli bir tarixi an oldu. Bu Zirvə görüşündə Prezident İlham Əliyev yalnız regionda sülh və təhlükəsizliyin təmin edilməsi istiqamətindəki mülahizələrini açıqlamaqla kifayətlənmədi, həm də Türk Dövlətləri Təşkilatının gələcək inkişafına dair strateji hədəflərini vurğuladı.

İlham Əliyevin çıxışında önə çıxan bir neçə mühüm məqam vardır. Bu səbəbdən də Türk Dövlətləri Təşkilatının güclənməsi və təşkilata üzv olan ölkələr arasında daha sıx əməkdaşlığın qurulması istiqamətində bir sıra vacib mesajlar verdi.

### Türk dünyasının strateji vizyonu və inteqrasiyası

Əvvəlcə, İlham Əliyev Türk Dövlətləri Təşkilatının gələcəyinə dair yeni strateji hədəflər ortaya qoydu. Prezident türk dünyasının daha sıx inteqrasiyasının vacibliyini qeyd edərək, üzv ölkələr arasında ticarət, nəqliyyat, enerji və turizm sahələrində əlaqələrin artırılmasının vacibliyini vurğuladı. Bu baxımdan Azərbaycan öz geosiyasi mövqeyindən istifadə edərək, Türk Dövlətləri Təşkilatının iqtisadi gücünü artırmaq və üzv ölkələr arasında ticari əlaqələri gücləndirmək niyyətində olduğunu bəyan etdi.

### Nəqliyyat və logistika infrastrukturunun inkişafı

Azərbaycanın "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin inkişafı ilə bağlı irəliləyişlərini diqqətə çatdıran İlham Əliyev bu layihələrin Türk Dövlətləri Təşkilatının üzv ölkələri üçün böyük əhəmiyyət daşıdığını qeyd etdi.

Dövlət başçısı Azərbaycanın, təkcə öz ölkəsinin deyil, eyni zamanda türk dünyasının nəqliyyat mərkəzinə çevrilməsi məqsədini daşıdığını bildirdi. Bu layihələrin həyata keçirilməsi ilə türk dövlətləri arasında daha asan və sürətli ticarət əlaqələri qurulacağı vurğulandı.

### Enerji təhlükəsizliyi və türk dövlətlərinin enerji bazarına təsiri

Prezident İlham Əliyev enerji sahəsində də Türk Dövlətləri Təşkilatının böyük potensiala sahib olduğunu qeyd edərək, Azərbaycanın enerji təhlükəsizliyi məsələsindəki rolunu önə çəkdi.

İlham Əliyev türk dövlətlərinin enerji ehtiyatlarının paylaşılmasının və bu sahədə birgə fəaliyyətin daha da dərinləşdirilməsinin vacibliyini bildirdi. Azərbaycanın Xəzər dənizindəki enerji resurslarının türk dünyasına qazandırılmasını və bu resursların dünyaya daşınması istiqamətindəki səylərinin davam edəcəyini vurğuladı.

### Təhlükəsizlik və hərbi əməkdaşlıq

Türk Dövlətləri Təşkilatının həm iqtisadi, həm də təhlükəsizlik baxımından güclü bir struktura çevrilməsi üçün hərbi sahədə əməkdaşlığın artırılmasının vacibliyinə diqqət çəkən İlham Əliyev bu baxımdan üzv ölkələr arasında hərbi təlimlərin, mütəxəssis mübadiləsinin və təhlükəsizlik məsələləri üzrə əməkdaşlığın genişləndirilməsinin zəruriliyini qeyd etdi.

Dövlətimizin başçısı dedi ki, təşkilatın təməl sənədi olan Naxçıvan Sazişində sülhün qorunması və təhlükəsizlik əsas məqsəd və vəzifələr sırasında yer alıb. Dünyanın üzləşdiyi hazırkı geosiyasi və təhlükəsizlik çağırışları fonunda, ötən il Şuşada qeyri-rəsmi Zirvə görüşü zamanı qəbul edilmiş Qarabağ Bəyannaməsinə və bugünkü Zirvə görüşünün "Regional sülh və təhlükəsizlik" mövzusuna uyğun olaraq, türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsi olduqca vacibdir.

Məlumdur ki, təhlükəsizlik təmin edilmədən inkişaf mümkün deyil. Beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulduğu dövrdə ölkələrimiz arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq çox önəmli amillərdən biridir. Bu çərçivədə müttəfiqimiz olan Türkiyə ilə dərin əməkdaşlıq mövcuddur. Yalnız son bir ildə Türkiyə ilə birgə 25-dən artıq ikitərəfli və çoxmillətli hərbi təlimlər keçirilib. "Ölkələrimiz arasında hərbi, müdafiə və təhlükəsizlik sahələrində geniş əməkdaşlığı nəzərə alaraq, 2026-cı ildə Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsini təklif edirəm" deyən Azərbaycan Prezidenti vurğuladı ki, bugünkü dünyada hərbi güc hər bir ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün əsas amilidir.

### Türk dünyasında təhsil və mədəniyyət əməkdaşlığı

Türk Dövlətləri Təşkilatının təhsil və mədəniyyət sahələrində də böyük potensiala sahib olduğunu qeyd edən İlham Əliyev türk dünyası ölkələri arasında təhsil və mədəniyyət sahəsində əməkdaşlığın daha da gücləndirilməsinin vacib olduğunu bildirdi. Bu məqsədlə türk dilinin tədrisinin genişləndirilməsi, mədəni mübadilələrin artırılması və birgə layihələrin həyata keçirilməsi planlaşdırılmalıdır.

### İqlim dəyişikliyi və ekoloji problemlər

Prezident İlham Əliyev Azərbaycan hökumətinin ekoloji problemlərlə mübarizə sahəsində ciddi addımlar atdığını, türk dünyası ölkələrinin də birgə şəkildə bu məsələyə yanaşmasının vacib olduğunu qeyd etdi. Azərbaycan ekoloji təhlükəsizliyin təmin edilməsi istiqamətində beynəlxalq əməkdaşlığa verdiyi önəmi vurğuladı və Türk Dövlətləri Təşkilatının bu sahədə birgə siyasət yürütməsini təklif etdi.

### Türk Dövlətləri Təşkilatının qlobal siyasətdəki rolu

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının qlobal siyasətdə daha aktiv rol alması üçün bütün üzv ölkələrin birgə fəaliyyət göstərməsinin vacibliyini qeyd etdi. Dövlət başçısı türk dünyasının dünya siyasətindəki təsirinin artırılması və bu təşkilatın beynəlxalq arenada daha möhkəm mövqe tutması məqsədilə əməkdaşlığın dərinləşdirilməsinin vacib olduğunu bildirdi.

Qəbələdə keçirilən 12-ci Zirvə görüşü, Türk Dövlətləri Təşkilatının gələcəyinə dair İlham Əliyevin bəyan etdiyi hədəflər, türk dünyasının siyasi, iqtisadi və mədəni inteqrasiyasını sürətləndirə biləcək mühüm addımların atılması istiqamətində bir çağırışdır. Bu hədəflərin həyata keçirilməsi, türk dövlətləri arasında daha güclü bir əməkdaşlıq qurulmasına və bu əməkdaşlığın qlobal səviyyədə daha təsirli olmasına imkan yaradacaq.

Qəbələ Zirvə görüşü Türk Dövlətləri Təşkilatının gələcək inkişafını təmin edəcək bir çox mühüm sənədin imzalanması ilə yadda qaldı. İmzalanan sənədlər, türk dünyası ölkələri arasında sıx əlaqələrin qurulmasına, birgə strateji layihələrin həyata keçirilməsinə və regional məsələlərə qarşı birgə yanaşmanın inkişafına zəmin yaradacaq. Bu sənədlər türk dünyasının siyasi, iqtisadi və mədəni inteqrasiyasını daha da irəlilətmək üçün əsaslı bir addım oldu.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Londonda yüksəksəviyyəli iqlim dialoqunda iştirak edib

**Londonda yerləşən tarixi Marlboro Sarayında "Dəniz səviyyəsinin dəyişməsi və qeyri-bərabər nəticələr: Xəzər dənizi və inkişaf etməkdə olan kiçik ada dövlətləri (SIDS) üzrə təcrübələr" adlı yüksəksəviyyəli iqlim dialoqu keçirilib.**



AZƏRTAC xəbər verir ki, 56 ölkəni birləşdirən Millətlər Birliyi ilə əməkdaşlıq çərçivəsində təşkil edilən tədbirdə Londondakı diplomatik korpusun nümayəndələri, həmçinin diplomatik korpusun marşalı, Böyük Britaniya Xarici İşlər Nazirliyi və digər dövlət qurumlarının nümayəndələri, kiçik ada dövlətlərinin təmsilçiləri, iqlim təşkilatları və media nümayəndələri, Millətlər Birliyi Katibliyinin əməkdaşları, gənc liderlər və digər qonaqlar iştirak ediblər.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva tədbirdə çıxış edərək Xəzər dənizinin səviyyəsinin azalması probleminə diqqət yönəldib. O qeyd edib ki, son 30 ildə dünyanın ən böyük göllərinin su itkisinə məruz qalması və plastik tullantılarla çirklənməsi vəziyyəti daha da ağırlaşdırır. O, Azərbaycanda COP29-un uğurla keçirildiyini xatırladaraq, COP30-a gedən yolda artıq ideyalardan çox əməli addımların atılmasının vacibliyini vurğulayıb. Leyla Əliyeva rəhbəri olduğu IDEA İctimai Birliyinin təbiətin qorunması və gənclərin bu prosesə cəlb edilməsi istiqamətində apardığı fəaliyyətlərdən də söz açıb. Leyla Əliyeva çıxışının sonunda qeyd edib ki, təbiətə münasibət insanlığa münasibətin göstəricisidir və Xəzərə laqeyd yanaşmamaq onun həyat dolu gələcəyinə ümid yaradır.




COP29-un Sədri və Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev çıxışında beynəlxalq birliyi Xəzər üçün də Amazon və digər tropik meşələr kimi həmrəylik göstərməyə çağırıb və bildirib ki, Azərbaycan bu məqsədlə BMT-nin Ətraf Mühit Proqramı ilə birlikdə 2025-2035-ci illəri əhatə edən "Xəzər dənizinin səviyyə enməsi üzrə Fəaliyyət Planı" üzərində işləyir. O, Prezident İlham Əliyevin təşəbbüsü ilə COP29 çərçivəsində Xəzəryanı dövlətlərin birgə bəyannamə qəbul etdiyini və əməkdaşlığın gücləndirildiyini xatırladıb.

Sədr IDEA kampaniyasının Xəzərin biomüxtəlifliyinin qorunmasında mühüm rol oynadığını xüsusi qeyd edib. O, həmçinin Azərbaycanın iqlim dəyişikliyindən əziyyət çəkən kiçik ada dövlətləri ilə həmrəylik göstərdiyini, bu ölkələrdə davamlı inkişaf və adaptasiya layihələrinə dəstək verdiyini bildirib. Muxtar Babayev çıxışının sonunda qeyd edib ki, COP29-da verilən vədlərin yerinə yetirilməsi və iqlim maliyyəsinin artırılması beynəlxalq etimadın bərpası üçün vacibdir və Azərbaycan bundan sonra da qlobal iqlim həmrəyliyi istiqamətində fəal rol oynayacaq.

Millətlər Birliyinin Baş katibinin müavini Suddhu Arjun Millətlər Birliyinə daxil olan ölkələrin əksəriyyətinin iqlim dəyişikliyinin mənfi təsirlərinə məruz qaldığı barədə danışıb. O bildirib ki, Azərbaycanın COP29 Sədrliyinin xüsusilə kiçik ada dövlətlərinin üzləşdiyi problemlərə həssaslıqla yanaşması və bu problemlərin həlli istiqamətində konkret addımlar atması olduqca təqdirəlayiqdir. Bu baxımdan o, COP29 Sədrliyi ilə Millətlər Birliyi arasında 2024-cü ildə imzalanmış Anlaşma Memorandumu əsasında Millətlər Birliyinə daxil olan kiçik ada dövlətlərində iqlim fəaliyyətinə töhfə verməyi hədəfləyən əməkdaşlıq layihəsinə diqqət yönəldib.

Britaniya Xarici İşlər Nazirliyinin Kiçik Ada Dövlətləri üzrə xüsusi elçisi Tim Hemminqs çıxışında ötən il COP29-un əldə etdiyi uğurlara nəzər yetirib, dəyişən su səviyyələrinin yaratdığı problemlərin miqyasını nəzərə alaraq Britaniya XİN-in bu istiqamətdə məsələlərə dəstək vermək üçün bir sıra layihələr həyata keçirdiyini deyib. O, COP29 Sədrliyinin Millətlər Birliyi ilə Londonda bu mövzuda tədbir təşkil etməsinin alqışalayiq olduğunu söyləyib.

"Whale Guardians" təşkilatının həmtəsisçisi və icraçı direktoru Maykl Fişbek Xəzər dənizinin bioloji müxtəlifliyinə diqqət yönəldərək nəzərə çatdırıb ki, Xəzərin suyunun azalması qlobal okeanlarda baş verə biləcək daha genişmiqyaslı proseslərin xəbərçisidir. O, buna görə də Xəzərin qorunması ilə bağlı təxirəsalınmaz addımların atılmasının vacibliyini deyib.

Fişbek Azərbaycanın ölkə Prezidentinin rəhbərliyi altında COP29 zamanı göstərdiyi liderliyi və "yaşıl enerji" sahəsində planlarını yüksək qiymətləndirib. O, çıxışının sonunda bildirib ki, məqsədi təkcə balina və digər dəniz canlılarını qorumaq deyil, Xəzər dənizi kimi dəniz ekosistemlərini də qorumaq və onların yenidən canlanmasına töhfə verməkdir.



Tədbirdə Baham, Maldiv, Antiqua və Barbuda kimi kiçik ada dövlətlərinin Londondakı səfirləri danışaraq dəniz səviyyəsinin qalxmasının bu ölkələrin mövcudluğu üçün birbaşa təhlükə yaratdığını deyib, COP29 Sədrliyinə belə vacib məsələyə diqqət yönəltdiyi üçün təşəkkür ediblər.

Tədbirdə Azərbaycan təbiətinə həsr olunmuş sərgi də nümayiş etdirilib. Tədbir sərgiyə baxış və rəsmi qəbulla yekunlaşıb.

## "Agenda Nexus" nəşri Azərbaycanın regionda artan nüfuzu haqqında analitik material dərc edib

**İsveçin "Agenda Nexus" analitik platforması Azərbaycanın Cənubi Qafqazda əsas dövlət kimi mövqelərinin möhkəmlənməsi mövzusunda məqalə dərc edib.**

AZƏRTAC xəbər verir ki, "Azərbaycan regional gücünü artırır" sərlövhəli məqalədə ölkəmizin 2020-ci ildən indiyədək əldə etdiyi strateji, iqtisadi və hərbi uğurlar ətraflı nəzərdən keçirilir.

Müəlliflər qeyd edirlər ki, Azərbaycan Ermənistanla müharibədə qalib gəldikdən sonra Silahlı Qüvvələrini əhəmiyyətli dərəcədə gücləndirib, sənayesini müasirləşdirib, beynəlxalq əməkdaşlığı inkişaf etdirərək regional siyasətdə sabit və nüfuzlu aktora çevrilib. Türkiyə, İsrail, İtaliya, Böyük Britaniya və Qərb tərəfdaşları ilə strateji ittifaqlara xüsusi diqqət yetirilir ki, bu da ölkənin müdafiə qabiliyyətini gücləndirməyə və texnoloji müstəqillik səviyyəsini yüksəltməyə imkan verib.

Məqalədə vurğulanır ki, Azərbaycan energetika, sənaye və texnoloji sektorların inkişafına fəal sərmayələr yatırır, zirehli texnika, artilleriya və müasir hava hücumundan müdafiə sistemlərinin yerli istehsalını yaradaraq Silahlı Qüvvələrini modernləşdirir. Analitiklərin fikrincə, bu yanaşma Azərbaycana yüksək səviyyədə muxtariyyət verir və onu regional sabitliyin həlledici amilinə çevirir.

Müəlliflər onu da qeyd edirlər ki, Ermənistandakı siyasi qeyri-sabitlik və regionda Rusiyanın təsirinin artması fonunda Azərbaycan nəinki öz maraqlarını müdafiə etmək, həm də Qafqazda təhlükəsizliyin möhkəmləndirilməsinə töhfə vermək iqtidarında olan sabit, müstəqil və Qərbyönümlü aktor kimi formalaşır.

Nəşrin baş redaktoru Oden Aqapur məqaləyə daxil edilmiş şərhində qeyd edir ki, Azərbaycanın təcrübəsi kiçik və orta Avropa ölkələri, o cümlədən İsveç üçün nümunə ola bilər. Bu təcrübə göstərir ki, diplomatik ittifaqlar, hərbi modernləşdirmə, iqtisadiyyat və texnologiyaya uzunmüddətli investisiyaların vəhdəti dövlətə beynəlxalq siyasətdə öz mövqeyini və təsirini əhəmiyyətli dərəcədə gücləndirməyə imkan verir.

# Türk Dövlətləri Təşkilatı qlobal arenada vacib aktordur



## Qardaş töhfəsi

**Dövlətimiz üç onillik boyu işğal altında olan, talan edilərək xarabalığa çevrilən Qarabağ və Şərqi Zəngəzurda geniş bərpa-quruculuq işləri aparır. Yaşayış məntəqələri yenidən salınır, infrastruktur qurulur.**

2022-ci ildən etibarən həmin yerlərə mərhələli şəkildə qayıdış həyata keçirilir. İndi on minlərlə insanın yaşadığı, işlədiyi və təhsil aldığı bu ərazilərdə yenidən həyat qaynayır. Qarabağ və Şərqi Zəngəzurda qardaş ölkələr - Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Macarıstan, Türkmənistan və Türkiyə tərəfindən quruculuğa dəstək verilməsi isə həm Azərbaycan xalqı, həm də ümumilikdə "türk dünyası ailəsi" adına yaşanan qürurverici məqamlardandır.

Oktyabrın 7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü zamanı bu dəstəyin növbəti təntənəsini yaşadıq. Prezident İlham Əliyev, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov və Zirvə görüşündə iştirak edən digər dövlət və hökumət başçıları Türkmənistan tərəfindən Füzulidə tikiləcək məscidin onlayn formatda təməlini qoydular.

"Füzulidə Mirzə Uluqbəy adına məktəb, Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi, Ağdamda Manas adına məktəb artıq fəaliyyətdədir. Bu, özbək, qazax, qırğız qardaşlarımızın hədiyyəsidir. Macar qardaşlarımızın hədiyyəsi Cəbrayılda tikilən məktəbdir. Türkmən qardaşlarımızın hədiyyəsi - bu gün təməli qoyulan Füzuli məscididir. Qardaş Türkiyənin şirkətləri bir çox tunellər, körpülər, yollar inşa edir. Azərbaycan xalqı bu qardaş dəstəyini heç vaxt unutmayacaq", - deyə TDT-nin Dövlət Başçıları Şurasının Zirvə görüşü zamanı etdiyi çıxışında Prezident İlham Əliyev bu töhfəyə görə qardaşlara təşəkkürünü bildirdi.





### Həmrəyliyin təzahürü

Türkdilli dövlətlərlə hərtərəfli əlaqələr Azərbaycanın xarici siyasətində daim prioritet kimi müəyyənləşdirilir. Hələ 44 günlük müharibəyə qədərki dövrdə də ölkəmiz türk dövlətləri ilə yüksəksəviyyəli əlaqələr quraraq türk dünyasının birliyi naminə mühüm işlər görürdü. Şuşa qələbəsi isə "türk dünyası ailəsi"nin həmrəyliyini zirvəyə daşıyan misilsiz hadisə oldu. Bu zəfər milli köklərimizlə, dilimizlə, mədəniyyətimizlə sıx bağlı olduğumuz türk xalqlarının, dövlətlərinin birliyini daha da sarsılmaz etdi. Vətən müharibəsinin 44 günü ərzində də türk dünyasının qəlbi Azərbaycanla döyündü, qələbələrimiz böyük coşqu ilə qarşılandı. Həmin vaxt ən ali səviyyədə qardaş Türkiyənin siyasi, mənəvi dəstəyini hiss etməsi həm savaş meydanında düşmənlə döyüşməyə, həm də beynəlxalq arenada qərəzli siyasi güclərlə mübarizə aparmağa ölkəmizə əlavə ruh və qüvvət verdi.

Qardaş Türkiyə və Azərbaycan arasında 2021-ci ildə imzalanan Şuşa Bəyannaməsinin türk birliyinin güclənməsinə mühüm təsiri oldu.

6 iyul 2024-cü ildə Qarabağda türk dünyasının həmrəyliyi adına daha bir tarixi hadisə yaşandı. Sözügedən tarixdə Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü Azərbaycanın mədəniyyət paytaxtında keçirildi. Görüşdə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin, Qırğız Prezidenti Sadır Japarovun, Macarıstanın Baş naziri Viktor Orbanın, Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmazın, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarın, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyevin, ümumiyyətlə, türkdilli dövlətlərdən olan xeyli mötəbər şəxsin iştirak etməsi, burada Qarabağ Bəyannaməsini imzalamaları mühüm əhəmiyyət daşıdı. Qeyri-rəsmi Zirvə görüşündəki çıxışında Prezident İlham Əliyev qeyd etdi ki, türk dövlətlərinin rəhbərlərinin azad edilmiş torpaqlara səfərləri qardaşlıq həmrəyliyinin təzahürüdür: "Türkiyə Prezidenti Şuşa, Füzuli, Zəngilan və Cəbrayıla, Özbəkistan və Qazaxıstan prezidentləri Şuşa və Füzuliyə, Qırğızıstan Prezidenti Füzuli və Ağdama səfərlər etmişlər".




### Dost hədiyyəsi

Türk dövlətlərinin Azərbaycanın işğaldan azad edilən ərazilərində Böyük qayıdışı həyata keçirmək üçün apardığı quruculuq işlərinə töhfələr verməələri qardaşlıq həmrəyliyinin daha bir təcəssümüdür.

2023-cü ildə Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılış mərasimində iştirak etdilər. Özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən məktəb 960 şagird yerlikdir.

Ötən ilin martında Qazaxıstan tərəfindən tikilən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışı olub. Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin ikimərtəbəli binasında 600 uşağın bir neçə növbədə məktəbdənkənar təhsil alması üçün hər cür şərait yaradılıb. Dövlətimizin rəhbəri İlham Əliyevlə birgə açılış mərasimində iştirak edən Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev bildirdi ki, bu mərkəz Qazaxıstan xalqı adından hədiyyədir: "Bu obyekt şübhəsiz ki, ölkələrimiz arasında rifahın, bütün əlaqələrin, hərtərəfli münasibətlərin möhkəmləndirilməsinə töhfə olacaq".

3 iyul 2025-ci ildə Prezident İlham Əliyev və Qırğız Prezidenti Sadır Japarov Ağdam rayonunun Xıdırlı kəndinin 1-ci mərhələsinin açılışında iştirak etdilər. Dövlət başçıları, Qırğızıstan tərəfindən tikilən Ayköl Manas adına 528 şagird yerlik tam orta məktəbin açılışını həyata keçirdilər.

Macarıstanın maliyyə dəstəyi ilə Cəbrayılda məktəb binasının tikilməsi, həmçinin bu il oktyabrın 7-də Türkmənistan tərəfindən Füzulidə inşa ediləcək məscid kompleksinin təməlinin qoyulması türkdilli dövlətlərin bir-birlərinə göstərdikləri dəstəyə bariz nümunələrdir.

Prezident İlham Əliyev, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov və Zirvə görüşündə iştirak edən digər dövlət və hökumət başçıları tərəfindən onlayn formatda təməli qoyulan və ümumi ərazisi 1 hektardan çox olacaq məsciddə eyni vaxtda 500 nəfər ibadət edə biləcək.

Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsinin timsalında, bütün bunlar, türk dünyasının birliyinin uğurlu bəhrələridir. Bu, həm də onu göstərir ki, qardaş xalqlar və dövlətlər daim bir-birilərinə arxa-dayaq durur, kədərdə də, sevincdə də bir yerdə olub həmrəylik göstərirlər.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Türk dünyası daha böyük gücə çevriləcək



**Ulu Öndər Heydər Əliyev deyirdi: "Türk dünyasının birliyi bizim tarixi köklərimizdən gələn zərurətdir. Biz bu birliyə söykənərək daha güclü, daha nüfuzlu, daha müstəqil ola bilərik". Bu uzaqgörən fikirlər hazırda Türk Dövlətləri Təşkilatının (TDT) güclənməsində öz təsdiqini tapır. O vaxtlar ideya kimi səslənən türk birliyi bu gün artıq real siyasi, iqtisadi və strateji güc mərkəzinə çevrilib. Oktyabrın 7-də Qəbələdə keçirilən TDT Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü bunu bir daha təsdiqlədi.**



Türk dövlətləri birliyə yalnız qardaşlıq duyğusu ilə deyil, həm də geosiyasi məsuliyyət hissi ilə yanaşırlar. Müasir dünyanın qarşılaşdığı böhranlar, beynəlxalq hüququn pozulması hallarının artması və regional münaqişələr fonunda TDT-nin vahid mövqedən çıxış etməsi zərurətə çevrilib. Prezident İlham Əliyevin sözləri ilə desək, "Bu gün dünya dəyişir, yeni güc mərkəzləri yaranır və türk dünyası bu prosesin mərkəzində olmalıdır".

Azərbaycan bu birliyin güclənməsinə həm siyasi iradə, həm iqtisadi resurs, həm də strateji mövqe ilə mühüm töhfə verir. Ölkəmizin TDT Katibliyinə 2 milyon ABŞ dolları məbləğində ianə köçürməsi, bu təşkilatın fəaliyyətinə verilən dəstəyin nümunəsidir. Amma bu addım yalnız maliyyə jesti deyil, Azərbaycanın türk birliyinin gələcəyinə inamının ifadəsidir.

Bugünkü türk dünyasını birləşdirən əsas amillər - siyasi sabitlik, iqtisadi potensial, gənc və dinamik əhali, təbii sərvətlər və artan hərbi-texniki gücdür. Bu amillər TDT-ni qlobal arenada təsirli aktora çevirir. Sülh və təhlükəsizlik hər bir dövlətin inkişafı üçün başlıca şərtdir. Təşkilatın təməlini qoyan Naxçıvan Sazişi də məhz bu prinsipləri əsas məqsəd kimi müəyyən edib. Azərbaycan bu prinsiplərə sadiqliyini həm diplomatik, həm də praktiki addımlarla sübut edib. 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Qələbə, ərazi bütövlüyümüzün bərpası, ardınca 2023-cü ildə həyata keçirilən antiterror tədbirləri bölgədə yeni reallıq yaratdı. Bu reallıq Azərbaycanın, eləcə də bütün türk dünyasının gücünü və birliyinin səmərəsini göstərdi. İlham Əliyevin vurğuladığı kimi, "Bu Zəfər təkcə bizim deyil, bütün türk dünyasının Zəfəridir".

Sülhə doğru atılan addımlar bu gün konkret nəticələr verir. Ermənistanla paraflanmış sülh sazişi Cənubi Qafqazda uzunmüddətli sabitlik və əməkdaşlıq dövrünü başlatmaq potensialına malikdir. Bu sənəd yalnız Azərbaycan üçün deyil, bütün region üçün təhlükəsizliyin qarantıdır. Qırğız Respublikasının Prezidenti Sadır Japarovun da bu Zirvə görüşündə qeyd etdiyi kimi, türk dövlətlərinin əsas məqsədi bölgədə sülhü qorumaq və iqtisadi inteqrasiyanı gücləndirməkdir. Bu məqsədlərə çatmaq üçün hərbi və təhlükəsizlik sahəsində əməkdaşlıq həlledici əhəmiyyət daşıyır. Beynəlxalq hüququn pozulduğu, yeni təhdidlərin yarandığı bir vaxtda üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsi və ortaq müdafiə strategiyalarının formalaşması vacibdir. Prezident İlham Əliyev Zirvə görüşündə çıxışında bu istiqamətdə mühüm təşəbbüs irəli sürərək, 2026-cı ildə Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsini təklif etdi. Bu addım türk dövlətlərinin müdafiə qabiliyyətinin gücləndirilməsinə, təhlükəsizlik sahəsində koordinasiyanın dərinləşməsinə xidmət edəcək. Cənab Prezident İlham Əliyevin sözləri ilə desək, "Biz bir-birimizin təhlükəsizliyini öz təhlükəsizliyimiz hesab etməliyik".

Bu gün dünyada hərbi güclə yanaşı, müdafiə məsələsi də suverenliyin təminatıdır. Azərbaycan öz torpaqlarını danışıqlar masasında deyil, döyüş meydanında azad etdi. Bu qələbə göstərdi ki, güclü orduya, sarsılmaz milli iradəyə və xalq dəstəyinə malik dövlət ədaləti bərpa edə bilir. Lakin bu güc yalnız döyüş meydanında deyil, həm də sülhün və ədalətin qorunmasında özünü göstərməlidir.

İnkişafın digər mühüm istiqaməti iqtisadi və nəqliyyat əlaqələrinin genişləndirilməsidir. Azərbaycan bu sahədə türk dövlətlərini birləşdirən strateji körpü rolunu oynayır. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin qovşağında yerləşən ölkəmiz son illərdə Orta dəhlizin genişlənməsi istiqamətində mühüm işlər görüb. Yükdaşımaların 90 faiz artması, tranzit müddətlərinin azalması və yeni logistika imkanları türk dünyasını Avrasiya məkanında mühüm oyunçuya çevirib. Zəngəzur dəhlizinin (TRIPP) açılması isə bu strategiyanın əsas həlqəsidir. Bu dəhliz yalnız nəqliyyat xətti deyil, türk dövlətlərinin fiziki birliyini təmin edən strateji arteriyadır. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin də vurğuladığı kimi, Orta dəhlizin inkişafı türk dövlətlərinin iqtisadi inteqrasiyasını daha da gücləndirəcək, yeni ticarət marşrutları üçün sabit zəncir yaradacaq.

Enerji təhlükəsizliyi sahəsində də Azərbaycan etibarlı tərəfdaş kimi özünü təsdiqləyib. Şaxələndirilmiş neft və qaz boru kəmərləri ilə 14 ölkəyə təbii qaz ixrac edən Azərbaycan, eyni zamanda bərpaolunan enerji sektorunda da önəmli addımlar atır. Günəş, külək və su-elektrik stansiyalarına qoyulan sərmayələr sayəsində 2030-cu ilə qədər enerji istehsalının 40 faizi "yaşıl mənbə"lər hesabına təmin ediləcək. Bu, ekoloji sabitlik və iqtisadi dayanıqlılıq baxımından mühüm nailiyyətdir.

Türk dövlətləri arasında mədəni və mənəvi bağlar onların arasındakı əməkdaşlığın ruhunu təşkil edir. Ortaq tarix, dil və dəyərlər bizi bir ailə kimi birləşdirir. 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultay bu birliyin ideoloji təməl daşlarından biridir. Bu qurultayın 100 illik yubileyinin TDT çərçivəsində təntənəli şəkildə qeyd olunması həm keçmişə hörmət, həm də gələcəyə inamın ifadəsi olacaq. Bu birliyin simvolik təzahürü kimi, türk dövlətlərinin Qarabağ və Şərqi Zəngəzurun bərpasına verdiyi dəstək xalqımız üçün böyük mənəvi dəyərə malikdir. Füzulidə Mirzə Uluqbəy adına məktəb, Ağdamda Manas adına təhsil ocağı, Cəbrayılda macar qardaşlarımızın inşa etdiyi məktəb, türkmən xalqının hədiyyəsi olan Füzuli məscidi - bütün bunlar türk həmrəyliyinin canlı nümunəsidir.

Türk Dövlətləri Təşkilatı bu gün artıq yalnız əməkdaşlıq platforması deyil, strateji güc mərkəzi kimi formalaşıb. Prezident İlham Əliyevin vurğuladığı kimi, "Türk dünyası birləşdikcə, daha böyük gücə çevriləcək və beynəlxalq münasibətlərdə söz sahibi olacaq".

Türk dünyası birləşdikcə gücümüz artır, səsimiz ucalır, yenidən tarix yazılır, gələcəyin qlobal nizamında söz sahibinə çevrilirik. Biz keçmişin irsini daşıyaraq, gələcəyin dünyasını qururuq. Türk birliyi çox yaxında gücün, ədalətin və sabitliyin qlobal simvoluna çevriləcək!

*Sadiq QURBANOV,*
*Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri*

## Azərbaycanın xarici siyasətinin uğurları

# Türk Dövlətləri Təşkilatının qlobal miqyasda əhəmiyyəti artır

**2009-cu ildə Naxçıvan Sazişi ilə əsası qoyulmuş Türk Dövlətləri Təşkilatı (TDT) beynəlxalq arenada mühüm aktorlardan birinə çevrilməkdədir. Üzv ölkələr arasında əlaqələrin genişləndirilməsi, qarşılıqlı maraq doğuran bir çox sahələrdə əhəmiyyətli layihələrin həyata keçirilməsi təşkilatın güclənməsinə imkan verib. Xüsusilə də, TDT-yə üzv ölkələrin ortaq tarix, etnik kök, dil, dostluq, qardaşlıq, qarşılıqlı etimad prinsipləri əsasında birləşməsi digər beynəlxalq və regional təşkilatlarla müqayisədə bu təşkilatı daha monolit, güclü və unikal edir.**



Milli Məclisin deputatı Zaur Şükürov qəzetimizə açıqlamasında bildirib ki, oktyabrın 7-də Azərbaycanın qədim şəhəri olan Qəbələdə "Regional sülh və təhlükəsizlik" mövzusunda keçirilən Türk Dövlətləri Təşkilatının 12-ci Zirvə görüşündə müzakirə edilən məsələlər, üzv ölkələrin təklifləri və Azərbaycanın təşkilata yenidən sədrliyə başlaması istər TDT-nin təşkilat olaraq inkişafında, istərsə də üzv və müşahidəçi dövlətlər arasında əməkdaşlığın dərinləşməsində mühüm rol oynayacaq. "Xüsusilə qeyd edilməlidir ki, Prezident İlham Əliyevin liderliyi ilə ölkəmizin yaratdığı yeni geosiyasi reallıqlar, işğala və separatizmə son qoyması nəticədə regionda sülh və sabitliyin təmin edilməsi və davamlı inkişafa nail olunması istiqamətində tarixi nailiyyətdir. Məhz bu reallıq, region dövlətləri arasında əlaqələrin genişləndirilməsi üçün əlverişli imkan yaratmaqla yanaşı, beynəlxalq təşkilatların və aparıcı dövlətlərin bölgəmizə marağının artmasına da səbəb olub", - deyə o əlavə edib.

Deputat deyib ki, Prezident İlham Əliyev 12-ci Zirvə görüşündəki çıxışında səsləndirdiyi fikirlərdə də məhz bu kimi məqamlara toxunub: "Daxili siyasi və iqtisadi sabitlik, əhəmiyyətli geostrateji mövqe, müsbət demoqrafiya və gənc əhali, nəqliyyat-logistika sahəsində böyük imkanlar, təbii resurslar, habelə hərbi və hərbi-texniki sahədə artan potensial TDT-ni qlobal arenada vacib aktora çevirir. Təşkilatımızın təməl sənədi olan Naxçıvan Sazişində sülhün qorunması və təhlükəsizlik əsas məqsəd və vəzifələr sırasında yer alıb. Dünyanın üzləşdiyi hazırkı geosiyasi və təhlükəsizlik çağırışları fonunda, ötən il Şuşada qeyri-rəsmi Zirvə görüşü zamanı qəbul edilmiş Qarabağ Bəyannaməsinə və bugünkü Zirvə Görüşünün "Regional sülh və təhlükəsizlik" mövzusuna uyğun olaraq, türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsi olduqca vacibdir" .

Z.Şükürov bildirib ki, TDT üzv dövlətləri arasında əməkdaşlıq sahələri sırasında ticari-iqtisadi, nəqliyyat-logistika və təhlükəsizlik məsələləri xüsusilə önəm kəsb edən istiqamətlərdir: "Məntiqi olaraq qeyd edilməlidir ki, məhz bu sahələrdə əlaqələrin dərinləşdirilməsi, ortaq layihələrin gerçəkləşdirilməsi təşkilatın gələcəkdə daha sabit inkişaf etməsinə, qlobal təhlükə və təhdidlərdən müdafiə olunmasına imkan verəcək. Torpaqlarımızın işğaldan azad olunması ilə suverenliyimiz və ərazi bütövlüyümüzün təmin edilməsi, BMT-nin məlum dörd qətnaməsinin Azərbaycan tərəfindən icra olunması ölkəmizin qlobal sülh və təhlükəsizliyə əhəmiyyətli töhfə verməsinin sübutu olmaqla yanaşı, qlobal sülhün və təhlükəsizliyin qorunmasında məsuliyyət daşıyan beynəlxalq təşkilatların fəaliyyətsizliyini nümayiş etdirdi. Prezident İlham Əliyev çıxışında bununla bağlı qeyd etdi: "2020-ci il 44 günlük Vətən müharibəsində tarixi Zəfərimiz, həmçinin 2023-cü ildə qətiyyətli antiterror tədbirləri nəticəsində Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyuldu. Bununla da ölkəmizin ərazi bütövlüyü və əzəli torpaqlarımız üzərində suverenliyi bərpa olundu. Bu tarixi nailiyyət yalnız Azərbaycanın milli iradəsinin və əzmkar mübarizəsinin təntənəsi deyil, eyni zamanda bölgədə ədalətin, sülhün və sabitliyin bərqərar olunmasına mühüm töhfədir. İki ay əvvəl Vaşinqtonda, Ağ Evdə Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanması Cənubi Qafqazı sülh məkanına çevirəcək. Vaşinqton Zirvəsi çərçivəsində, eyni zamanda ATƏT-in Minsk qrupunun və əlaqədar strukturların bağlanması üçün edilmiş birgə müraciətə uyğun olaraq, sentyabrın 1-də ATƏT tərəfindən qəbul edilmiş qərarla keçmiş münaqişənin bu qalıqları da aradan qaldırıldı".

Deputat deyib ki, digər mühüm bir məqam isə Orta dəhlizin vacib seqmenti olan Zəngəzur dəhlizinin (TRIPP) fəaliyyətə başlaması ilə əlaqədar ölkəmiz tərəfindən mühüm addımların atılmasıdır. 8 avqustda Vaşinqton görüşü zamanı məhz bu layihənin gerçəkləşməsi istiqamətində də vacib razılaşma əldə edilməsi Azərbaycan liderinin prinsipial, müstəqil və milli maraqlarımıza cavab verən uğurlu xarici siyasət kursunun təntənəsi oldu. Zəngəzur dəhlizi (TRIPP) nəinki Orta dəhliz, həm də Şimal-Cənub dəhlizi çərçivəsində son dərəcə cəlbedici və əhəmiyyətli bir layihədir. Vaşinqton razılaşmasından sonra bu layihəyə aparıcı beynəlxalq şirkətlərin və Avropa İttifaqının (Aİ) marağı artmaqdadır. Mərkəzi Asiya ölkələri ilə son illər intensiv əməkdaşlıq edən Aİ bu bölgənin nadir metallarının və təbii ehtiyatlarının Avropaya səmərəli şəkildə nəqli istiqamətində planlar üzərində işləyir. Aİ rəsmilərinin son aylar regionun nəqliyyat infrastrukturunun inkişafına diqqət ayırması da məhz bu niyyətdən xəbər verir. Bu xüsusda, Orta dəhlizin və bu layihədə açar dövlət olan Azərbaycanın rolu əvəzsizdir.

Z.Şükürov vurğulayıb ki, qeyd edilənləri nəzərə almaqla belə nəticəyə gəlmək olar ki, artıq qlobal miqyasda vacib orta gücə çevrilən Azərbaycanın TDT-yə sədrliyi dönəmi təşkilatın gələcək inkişafına mühüm töhfə verməklə yanaşı, beynəlxalq arenada əhəmiyyətli bir əməkdaşlıq platforması olaraq bu quruma marağı daha da artıracaq.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Prezident İlham Əliyev təşəbbüsləri ilə yeni dövrü başlatmaq qətiyyətini ortaya qoydu

**Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının XII Zirvə görüşündə Prezident İlham Əliyevin çıxışı təsisata istər Azərbaycanın qəbul etdiyi sədrlik dönəmində, istərsə də sonrakı inkişaf dövründə türk dünyasının güc və imkanlarının artırılması və əməkdaşlığın dərinləşdirilməsi istiqamətində yol xəritəsi hesab edilə bilər.**



Azərbaycan Respublikasının öz ərazi bütövlüyü və suverenliyini hərbi-siyasi zəfərləri ilə bərqərar etməsindən sonrakı yeni geosiyasi reallıqda ölkəmizin çoxvektorlu xarici siyasət kursunda türk dünyası ilə əməkdaşlıq, o cümlədən Türk Dövlətləri Təşkilatı çərçivəsində fəaliyyət prioritetlərdən biri kimi müəyyən edilib.

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında bildirib ki, ölkəmizin bütün suveren ərazilərini əhatələyən ilk prezident seçkilərindəki qələbəsindən sonra andiçmə mərasimində Prezident İlham Əliyev parlament tribunasından bu prioriteti açıq şəkildə bəyan edərək, eyni dil, mədəniyyət və tarixi kökləri bölüşdüyümüz qardaş xalqlarla münasibətlərin inkişaf etdirilməsi əzmini açıq formada ortaya qoymuşdu. Həmin dövrdən etibarən istər Azərbaycan Prezidentinin, istərsə də qardaş dövlətlərin rəhbərlərinin iş qrafikinə diqqət etsək, qarşılıqlı səfərlər və artan təmasların intensivliyi xüsusi diqqət çəkir və bu, dövlət başçısının irəli sürdüyü tezislərin digər türk dövlətlərində də məmnunluqla qəbul edildiyini, vahid siyasi iradənin mövcud olduğunu aydın formada görə bilərik. "Bu niyyətlərin realizəsi üçün isə ən uğurlu platforma Türk Dövlətləri Təşkilatı hesab edilə bilər. Sirr deyil ki, hazırda beynəlxalq və regional təsisatlara etimadın itdiyi bir dövrdə Türk Dövlətləri Təşkilatı artan nüfuzu və beynəlxalq arenada güclənən rolu ilə xüsusi diqqət çəkir. Pandemiya dövründə cənab İlham Əliyevin təşəbbüsü ilə qlobal səylər məhz ilk növbədə Türk Dövlətləri Təşkilatı çərçivəsində birləşdirilmiş, təsisatın müvafiq tələbinə uyğun olaraq BMT Baş Assambleyasının bu mövzuda xüsusi sessiyası çağırılmışdı. Eyni zamanda Azərbaycan Respublikasının Vətən müharibəsi və antiterror tədbirlərində özünün ərazi bütövlüyü və suverenliyini bərqərar edərək beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsiplərin, o cümlədən BMT Nizamnaməsinin aliliyinin təmin edilməsində ehtiva olunan haqq işində Türk Dövlətləri Təşkilatı vahid və qəti mövqe sərgiləyərək özünü çevik hərəkət imkanlarına malik subyekt kimi təsdiq edə bildi. Prezident İlham Əliyev də bu reallıqları düzgün qiymətləndirərək Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində təmasların daha da artırılması qənaətinə gəlmiş və təsisat çərçivəsində dövlət başçılarının rəsmi Zirvə görüşləri ilə bərabər, həm də qeyri-rəsmi Zirvənin keçirilməsi mexanizmini təklif etmişdi. Artıq bir neçə ildir ki, TDT çərçivəsində qeyri-rəsmi Zirvə görüşləri uğurlu model kimi tətbiq olunmaqdadır", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, təşkilatın Dövlət Başçılarının XII rəsmi Zirvə görüşü də Azərbaycan Prezidentinin təşəbbüsü ilə artıq mütəmadi hal almış qeyri-rəsmi Zirvə görüşlərinin ümumi işə nə qədər fayda verdiyini bir daha əməli olaraq ortaya qoydu. Prezident İlham Əliyevin Qəbələ Zirvəsindəki çıxışında əsas diqqətin konseptual məqamlara yönəlməsi və qarşıda konkret vəzifələrin qoyulması birmənalı formada deməyə əsas verir ki, təşkilat bundan sonra istər öz coğrafiyası, istər qonşu regionlar, istərsə də qlobal mühitdə sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində iddialı oyunçu kimi çıxış etməkdə israrlıdır. 4,5 milyon kvadratkilometr ərazi, 300 milyondan artıq, xüsusən gənc nəsildən ibarət əhali, 4 trilyon dollardan artıq maliyyə ehtiyatları, o cümlədən zəngin təbii sərvətləri və strateji əhəmiyyətə malik yerləşmə, əslində, Türk Dövlətləri Təşkilatının iddialı davranması üçün kifayət qədər real əsaslar ortaya qoyur. Prezident İlham Əliyevin də ifadə etdiyi kimi, məhz bu amillər TDT-yə sadəcə əməkdaşlıq platforması yox, həm də geosiyasi mərkəzlərdən biri kimi formalaşmaq imkanı verir. Bu amillər, eyni zamanda daxili, siyasi və iqtisadi sabitlik, əhəmiyyətli geostrateji mövqe, müsbət demoqrafiya və nəqliyyat-logistika sahəsində böyük imkanlar, təbii resurslar, o cümlədən hərbi və hərbi-texniki sahədə artan potensial, dövlət başçımızın ifadə etdiyi kimi, təşkilatın beynəlxalq səviyyədə nüfuzunun artmasına və qlobal arenada vacib aktora çevrilməsinə gətirib çıxarmaqdadır.

B.Məhhərəmov vurğulayıb ki, hazırda qütblərarası ziddiyyətin kəskinləşdiyi, ayırıcı xətlərin daha da dərinləşdiyi və beynəlxalq hüququn arxa planda qaldığı bir dövrdə Türk Dövlətləri Təşkilatı dünyada hərbi gücün hər bir subyektin müstəqilliyinin, ərazi bütövlüyünün və suverenliyinin əsas qarantı kimi çıxış etdiyi reallıqları doğru qiymətləndirməlidir: "Cənab İlham Əliyevin çıxışında da ifadə etdiyi kimi, beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulduğu dövrdə təhlükəsizliyi təmin etmədən inkişaf mümkün deyil. Bu mənada, Azərbaycan türk dövlətləri arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlığı zəruri hesab edir. Türk dövlətləri arasında hərbi, müdafiə və təhlükəsizlik sahəsində geniş əməkdaşlıq təcrübəsini nəzərə alaraq, o cümlədən ötən dövr ərzində Türkiyə ilə uğurla tətbiq edilən təcrübəyə əsaslanaraq dövlət başçısı Qəbələdən 2026-cı ildə Azərbaycanda türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsini təklif etməklə təşkilatın təməl sənədi olan Naxçıvan Sazişində sülhün qorunması və təhlükəsizliyin əsas məqsəd və vəzifələr sırasında yer almasında ehtiva olunan ali niyyətlərin realizəsi istiqamətində yeni bir dövr başlatmaq qətiyyətini ortaya qoydu. Əslində, proseslərin gedişatının bu istiqamətdə inkişaf edəcəyini proqnozlaşdırmaq mümkün idi, çünki dünyada davam edən hazırkı geosiyasi və təhlükəsizlik çağırışları fonunda təşkilat ötən il Şuşada qeyri-rəsmi Zirvə görüşü zamanı qəbul edilmiş Qarabağ Bəyannaməsində, həmçinin liderlərin ikitərəfli təmaslarında sülh və təhlükəsizlik amili diqqət mərkəzində saxlanılıb. Təsadüfi deyil ki, Qəbələ Zirvəsinin də leytmotivi regional sülh və təhlükəsizlik oldu və qardaş dövlətlər türk dünyasının vahid güc mərkəzi kimi çıxış etməli olduğu iradəsini bir daha ortaya qoydular".

Deputatın sözlərinə görə, Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Qəbələ Zirvəsi, həmçinin regionda Azərbaycanın artan güc və imkanları ilə bərabər de-fakto sülhün qarantına çevrilmiş Vaşinqton razılaşmalarının qardaş dövlətlərə kommunikasiyası baxımından da mühüm proses sayıla bilər. Vaşinqton Zirvəsi Azərbaycanın hərbi-siyasi yolla yaratdığı yeni reallıqların rəsmən bəyan olunması baxımdan mühüm proses olmaqla bərabər, həm də regionun nəqliyyat-kommunikasiya imkanlarının artırılması istiqamətində də önəmli gediş sayılır. Dövlət başçısının da ifadə etdiyi kimi, nəqliyyat-kommunikasiya əlaqələri TDT çərçivəsində strateji əhəmiyyətə malikdir və türk dünyasının nəqliyyat-kommunikasiya, tranzit və digər istiqamətlərdə potensialından istifadə məqsədilə görülən işlər qlobal əhəmiyyətli layihələrin icrasına gətirib çıxarır. Azərbaycanın öz ərazilərini işğal və təcavüzdən qurtarması, regionda de-fakto sülhə nail olması, Cənubi Qafqazı investisiyalar üçün təhlükəsiz mühitə çevirməsi yolunda qəti addımları, heç şübhəsiz ki, təktərəfli fayda xarakteri daşımır və türk dünyasının bu situasiyada qazanclı subyekt kimi çıxış etməsi artıq şübhə doğurmur.

Deputat söyləyib ki, Azərbaycan Prezidentinin təşəbbüsü ilə regionda həyata keçirilən nəqliyyat-kommunikasiya sistemləri, o cümlədən ölkəmizin nəhəng tranzit habına çevrilməsi, yaranan yeni geosiyasi reallıq fonunda Orta dəhlizlə yükdaşımaların son 3 ildə 90 faiz artması, dəhliz boyu tranzit müddətlərinin əhəmiyyətli dərəcədə azalması, ölkəmizin Xəzərin ən böyük ticarət donanmasına sahib olması, Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, 9 beynəlxalq hava limanı, regionun ən böyük yükdaşıma aviaşirkəti və sair amillərlə ölkəmizin prosesə verdiyi töhfə türk dünyası üçün də yeni imkanlar açıb: "Qəbələ Zirvəsi həm də məhz bu imkanların daha effektiv və çevik formada realizəsi baxımından mühüm müzakirə müstəvisi kimi çıxış etdi. Əlbəttə, beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsiplər, o cümlədən dövlətlərin daxili işlərinə qarışılmasının yolverilməzliyi, dövlətlərin sərhəd toxunulmazlığı və ərazi bütövlüyü məsələləri rəhbər tutulmaqla böyük türk birliyinə gedən yolda ortaq tarix və etnik köklərimiz, dillərimiz ən vacib birləşdirici amillər kimi çıxış etməkdədir. Bu situasiyanın istismar olunduğu dövrlərdən fərqli olaraq, bu gün artıq həmin amillərin qətiyyətli gedişlərin təməlinə çevrilməsi prosesinə şahidlik edirik və heç şübhəsiz ki, türk dünyası tarixinin heç bir dövründə bu qədər arzuolunan münasibətlər müstəvisinə nail ola bilməyib. Ölkəmizin rəhbəri çıxışında bir daha nümayiş etdirdi ki, Azərbaycan bütün amillərə, əlalxüsus da bizi birləşdirən vahid dəyərlərə buraxılmamalı olan fürsət kimi yanaşır və təsadüfi deyil ki, dövlət başçımız 1926-cı ildə Bakıda təşkil edilmiş Birinci Türkoloji Qurultayın gələn il 100 illik yubileyinin Türk Dövlətləri Təşkilatı çərçivəsində təntənəli şəkildə təşkil olunmasını təklif etdi. Görünən odur ki, türk dünyasının qlobal miqyasda söz sahibinə çevrilməsi istiqamətində niyyətlər aydın, addımlar isə qətiyyətlidir. Bu, eyni zamanda ifadə olunan iradə Türk Dövlətləri Təşkilatının mövqeyini daha da möhkəmləndirəcək, dövlət başçımızın da dediyi kimi, xalqlarımızın rifahına və təhlükəsizliyinə əlavə töhfələr verəcək".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# *Qazaxıstanlı alim:* "Azərbaycan TDT-ni dünyada formalaşmaqda olan güc mərkəzi kimi görür"

**Artan geosiyasi böhran fonunda Türk Dövlətləri Təşkilatı (TDT) möhkəmlənmə və dayanıqlı inkişafın yeni mərhələsinə qədəm qoyur.**



Bu barədə AZƏRTAC-a açıqlamasında Avrasiya Milli Universitetinin baş müəllimi, şərqşünas Janat Momınkulov bildirib.

Onun sözlərinə görə, Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü dönüş nöqtəsi oldu, təşkilat konkret əməkdaşlıq mexanizmlərinin işlənməsinə keçid etdi.

"Beynəlxalq gərginlik türk dövlətlərini birləşməyə məcbur edir. Bu baxımdan Türk Dövlətləri Təşkilatı regional tərəfdaşlıq platformasına çevrilir, üzv dövlətləri ortaq strateji maraqlar ətrafında birləşdirir. Ukraynadan Yaxın Şərq və Əfqanıstana qədər qeyri-sabitliklə əhatə olunmuş bu formalaşmaqda olan "türk təhlükəsizlik kəməri" qlobal maraqların kəsişmə nöqtəsində yerləşir", - deyə o bildirib.

"Azərbaycan təhlükəsizlik gündəliyinin formalaşdırılmasında əsas rol oynayır. Prezident İlham Əliyev 2026-cı ildə Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin birgə hərbi təlimlərinin keçirilməsini təklif edib. Rəsmi Bakının mövqeyi daha açıq və birbaşa xarakter daşıyır: Azərbaycan TDT-ni dünyada formalaşmaqda olan güc mərkəzlərindən biri kimi görür", - deyə Momınkulov vurğulayıb.

Sammitin əsas prioritetlərindən biri, Mərkəzi Asiya, Cənubi Qafqaz və Avropanı birləşdirən Orta dəhliz kimi tanınan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu olub. Bu marşrut dürk dövlətlərinin nəqliyyat müstəqilliyi üçün əsas hesab olunur və yeni Avrasiya logistika arxitekturasının mühüm elementidir.

"Əsas diqqət, ehtimal ki, tariflərin və texniki standartların harmonizasiyasına, birgə koordinasiya mexanizminin yaradılmasına, limanlar və nəqliyyat infrastrukturunun təhlükəsizliyinin təmin edilməsinə yönəlib. Bu tədbirlərin həyata keçirilməsi regionda qarşılıqlı əlaqələri gücləndirir və TDT-ni Şərq-Qərb istiqamətində strateji mərkəzə çevirir. Aparıcı dünya dövlətləri də bu inkişafla maraqlanır", - deyə ekspert əlavə edib.

Şərqşünasın fikrincə, enerji əməkdaşlığı türkdilli inteqrasiyanın təməl daşı olaraq qalır. Qazaxıstan, Xəzər regionu ölkələri, Azərbaycan və Türkiyə arasında razılaşdırılmış qaz və neftin ixracı üzrə strategiya regionun dayanıqlı əlaqələrinin möhkəmləndirilməsi və enerji müstəqilliyi üçün həyati əhəmiyyətlidir.

Ekspert yekun olaraq vurğulayıb ki, türk dünyası bu gün regional sülh və sabitliyin artan məkanına çevrilir. Qəbələ sammiti sadəcə diplomatik tədbir olmaqla kifayətlənmir, türk inteqrasiyanın möhkəmlənməsini və əməkdaşlığın yeni keyfiyyətinə keçidi simvolizə edir.

# *Türk ekspert:* "Türk Dövlətləri Təşkilatının təhlükəsizlik və müdafiə ölçüsünün gücləndirilməsi dövrün strateji zərurətidir"

**"Hazırkı geosiyasi reallıqlar fonunda Türk Dövlətləri Təşkilatının (TDT) fəaliyyətinin təhlükəsizlik və müdafiə ölçüsünün gücləndirilməsi strateji zərurətə çevrilib".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında türk ekspert Hüsaməddin İnaç deyib. Ekspert bildirib ki, Ukrayna müharibəsi nəticəsində Aİ ilə ABŞ arasında dərin fikir ayrılıqları müşahidə olunur və bu, Trans-Atlantik ittifaqının zəifləməsi ilə nəticələnib. Onun sözlərinə görə, NATO-nun təsir imkanlarının azalması, Avropa İttifaqının təhlükəsizlik sahəsində yetərli dəstək ala bilməməsi və İkinci Dünya müharibəsindən sonra formalaşmış qlobal təhlükəsizlik sisteminin, xüsusilə də BMT və NATO kimi qurumların funksionallıqlarını itirməsi yeni təhlükəsizlik boşluğu yaradıb.

Hüsaməddin İnaç qeyd edib ki, belə bir şəraitdə dövlətlərin yalnız fərdi səviyyədə təhlükəsizliklərini təmin etməsi getdikcə çətinləşir və bu, onları yeni regional və qlobal ittifaqlar yaratmağa sövq edir.

"Məhz bu kontekstdə 2009-cu ildə yaradılmış Türk Dövlətləri Təşkilatının bu günün reallıqlarına uyğun şəkildə təhlükəsizlik və müdafiə istiqamətlərini də özündə birləşdirməsi labüddür", - deyə o vurğulayıb.

Professorun sözlərinə görə, Mərkəzi Asiya və "Türküstan" adlandırılan coğrafiya bu gün həm ABŞ, həm Rusiya, həm də Çin arasında nüfuz və rəqabət meydanına çevrilib. Bu baxımdan Türkiyənin, Azərbaycanın və digər türk dövlətlərinin ayrı-ayrılıqda deyil, birgə hərəkət etməsi bölgənin suverenliyi, müstəqilliyi və sabitliyi üçün həyati əhəmiyyət daşıyır.

Ekspert qeyd edib ki, Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın türk dünyasının təhlükəsizlik və müdafiə sahələrində əməkdaşlığına dair çağırışları zaman baxımından olduqca məqsədəuyğundur. "2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan ilə Türkiyə arasında təhlükəsizlik və hərbi sahədəki əməkdaşlıq özünün yüksək səmərəliliyini nümayiş etdirdi. Bu, türk dünyasının birgə hərəkət potensialının real nəticələr verə biləcəyini sübut etdi", - deyə Hüsaməddin İnaç əlavə edib.

O deyib ki, Türk Dövlətləri Təşkilatı yaxın gələcəkdə ortaq müdafiə və təhlükəsizlik arxitekturası formalaşdırmalıdır. Bunun baş verməyəcəyi təqdirdə, bölgədə Rusiya, ABŞ və Çin kimi güclərin nüfuz dairəsini genişləndirməyə yönəlmiş fəaliyyətlərinin genişlənməsi müşahidə olunacaq. "Bu səbəbdən qəbul ediləcək strateji qərarların zamanlaması və istiqaməti son dərəcə düzgün seçilmişdir", - deyə ekspert qeyd edib.

# Türk Dövlətləri Təşkilatı qlobal arenada vacib aktordur

# Bizi həm də qlobal layihələr birləşdirir

## Azərbaycan Türkiyə ilə Mərkəzi Asiya arasında coğrafi, eyni zamanda iqtisadi körpü rolunu oynayır

**Türk Dövlətləri Təşkilatı (TDT) qlobal arenada vacib aktora çevrilir. Bu, daxili siyasi və iqtisadi sabitlik, əhəmiyyətli geostrateji mövqe, müsbət demoqrafiya və gənc əhali, nəqliyyat-logistika sahəsində böyük imkanlar, təbii resurslar, habelə hərbi və hərbi-texniki sahədə artan potensial sayəsində baş verir.**

Bu, Qəbələdə TDT-nin Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə bir daha vurğulandı, əslində, bunun növbəti nümayişinə çevrildi. Türk ölkələri ilə əlaqələrin genişləndirilməsi, türk dünyasının və Türk Dövlətləri Təşkilatının gücləndirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətidir. Azərbaycan həmişə türk dünyasının sıx birləşməsi, onun siyasi, iqtisadi və hərbi qüdrətinin artması, qlobal arenada güc mərkəzinə çevrilməsi naminə səylər göstərmişdir. Bu məqsədlə ölkəmiz TDT ilə iqtisadi əlaqələrini də genişləndirir. Bu da həm geniş formatda, həm də hər bir ölkə ilə ikitərəfli şəkildə iqtisadi əməkdaşlıqda özünü göstərir.

Qəbələdəki Zirvə görüşündə çıxış edərkən Prezident İlham Əliyev bildirmişdir ki, ölkəmiz təşkilatın işinə dəstək məqsədilə katibliyin hesabına 2 milyon ABŞ dolları məbləğində ianə köçürmüşdür. Dövlətimizin başçısı nəqliyyat və kommunikasiya əlaqələrinin Türk Dövlətləri Təşkilatı çərçivəsində strateji əhəmiyyətə malik olduğunu qeyd edərək demişdir: "Türk dünyasının nəqliyyat, kommunikasiya, tranzit və digər istiqamətlərdə potensialından istifadə məqsədilə görülən işlər qlobal əhəmiyyətli layihələrin icrasına gətirib çıxarıb. Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin fəal iştirakçısıdır. Ölkəmiz Türkiyə ilə Mərkəzi Asiya arasında coğrafi, iqtisadi, nəqliyyat və digər sahələrdə körpü rolunu oynayır. 2022-ci ildən bəri Orta dəhlizlə yükdaşımalar təqribən 90 faiz artıb. Dəhliz boyu tranzit müddətləri əhəmiyyətli dərəcədə azalıb. Xəzərin ən böyük ticarət donanması, yaxın illərdə gücü ildə 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, 9 beynəlxalq hava limanı, regionun ən böyük yükdaşıma aviaşirkəti və digər amillər Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirib.

Bu çərçivədə Vaşinqton Zirvəsinin digər mühüm nəticələrindən biri də Zəngəzur dəhlizinin (TRIPP) açılmasıdır. Zəngəzur dəhlizi həm Orta dəhliz, həm də Şimal-Cənub dəhlizi çərçivəsində yeni nəqliyyat arteriyası və ikinci marşrut kimi mühüm əhəmiyyət kəsb edir".

Sülh, regional bağlantılar və iqtisadi inkişafla əlaqəli olan digər mühüm istiqamət isə enerji təhlükəsizliyidir. Azərbaycan bu məqsədlərin qlobal səviyyədə təmin edilməsində də fəal rol oynayır. Belə ki, bir çox ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində özünü etibarlı və əvəzolunmaz tərəfdaş kimi təsdiqləyib.



Azərbaycanın şaxələndirilmiş neft və qaz kəmərləri vasitəsilə Xəzər regionunun beynəlxalq bazarlara birləşdirilməsində oynadığı strateji rol hamıya bəllidir. Hazırda 14 ölkəyə təbii qaz ixrac edirik. Coğrafi əhatəsinə görə boru kəmərləri ilə təbii qaz ixrac edən ölkələr sırasında Azərbaycan birinci yerdədir. Azərbaycanın karbohidrogenlərinin dünya bazarlarına yolu Türkiyədən keçir ki, bu da qardaşlığımızın, qarşılıqlı etimad və etibarın nümunələrindən biridir.

Ölkəmiz həmçinin günəş, külək və su-elektrik enerjisi kimi bərpaolunan enerji mənbələrinə böyük sərmayələr cəlb edir. 2030-cu ilə qədər enerji istehsalımızın təxminən 40 faizi bu mənbələr hesabına təmin olunacaq.

Yeri gəlmişkən, qeyd edək ki, hazırda beynəlxalq gündəmdə maraq doğuran məsələlərdən biri də Azərbaycanın, Qazaxıstanın və Özbəkistanın yaradacağı "yaşıl dəhliz"dir. Belə ki, keçən il noyabrın 13-də COP29 çərçivəsində bu üç ölkənin dövlət başçısı "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalayıb. 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanmasını da xatırladaq. Bu sazişə əsasən, Qara dənizin dibi ilə "yaşıl enerji" kabeli çəkiləcək. Bir sözlə, Mərkəzi Asiya, Qafqaz, Avropa, Xəzər və Qara dəniz vahid enerji dəhlizi ilə birləşdiriləcək.

Təsadüfi deyil ki, 12-ci Zirvə görüşündə Azərbaycanın TDT-yə üzv ölkələrlə bir çox önəmli sərmayə layihələrini icra etdiyi də vurğulanıb. "Bu günə qədər qardaş ölkələrin iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox vəsait qoyulub. Bunun əsas hissəsi Türkiyə iqtisadiyyatına qoyulmuş sərmayədir. Bununla bərabər, Azərbaycan Özbəkistanla, Qazaxıstanla, Qırğızıstanla birgə sərmayə fondları yaradıb. Bu fondlar vasitəsilə bir çox layihələr icra ediləcək. Ümumilikdə atılan addımlar türk dünyası daxilində iqtisadi inteqrasiyanın, enerji və nəqliyyat sahəsində dost və qardaş ölkələrimiz arasında əməkdaşlığın dərinləşməsinə və regionumuzun dayanıqlı inkişafına xidmət edir", - deyə dövlətimizin başçısı bildirmişdir.

TDT-yə daxil olan ölkələr Qarabağda və Şərqi Zəngəzurda apardığımız bərpa-quruculuq işlərini də maraqla izləyirlər ki, bu da qardaşlığın və getdikcə möhkəmlənən əlaqələrin təzahürüdür. Azərbaycan xalqı qardaş ölkələrin bu istiqamətdəki dəstəyindən çox məmnundur. Belə ki, artıq Füzulidə Mirzə Uluqbəy adına orta məktəb, Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi, Ağdamda Manas adına orta məktəb fəaliyyətdədir. Bu, özbək, qazax, qırğız qardaşlarımızın hədiyyəsidir. Macar qardaşlarımızın hədiyyəsi kimi Cəbrayılda məktəb tikilir. Qardaş Türkiyənin şirkətləri işğaldan azad olunmuş ərazilərimizdə bir çox tunel, körpü, yol inşa edir. Qəbələ Zirvə görüşü çərçivəsində türkmən qardaşlarımızın hədiyyəsi olacaq Füzuli məscidinin təməlinin qoyulması da TDT-dəki birliyi, həmrəyliyi, qarşılıqlı dəstəyi təsdiqləyən faktdır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## *Moldova xəbər portalı:* TDT böyük geosiyasi mərkəz kimi formalaşmaqdadır

**Moldovanın nüfuzlu "Noi.md" xəbər portalı Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü haqqında silsilə məqalələr dərc edib.**

AZƏRTAC xəbər verir ki, məqalələrdə Azərbaycan Prezidenti İlham Əliyevin çıxışındakı fikirlərə xüsusi diqqət yetirilib. Dövlətimizin başçısına istinadla qeyd edilib ki, Vaşinqtonda, Ağ Evdə Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin paraflanması Cənubi Qafqazı sülh məkanına çevirəcək. Həmçinin vurğulanıb ki, Türk Dövlətləri Təşkilatı hazırda böyük geosiyasi mərkəz kimi formalaşmaqdadır. Təşkilatın təsis sənədi olan Naxçıvan Sazişi sülh və təhlükəsizliyin əsas məqsəd və vəzifələri sırasında yer alır.










Məqalədə vurğulanıb ki, Türk Dövlətləri Təşkilatının (OTG) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə türk dövlətləri arasında siyasi dialoqun dərinləşdirilməsi və təkmilləşdirilməsi, iqtisadi inteqrasiyanın gücləndirilməsi, nəqliyyat və enerji təhlükəsizliyinin təşviqi, mədəni və humanitar əlaqələrin genişləndirilməsi, regional və qlobal çağırışlara cavab olaraq birgə fəaliyyətin vacibliyi məsələləri ətrafında hərtərəfli fikir mübadiləsi aparılıb. İclasın yekunu üzrə qəbul olunan Qəbələ Bəyannaməsində türk dünyasında həmrəyliyin gücləndiyi, qarşılıqlı etimadın artdığı, suverenlik, müstəqillik və dövlətçilik prinsiplərinə sadiqlik bir daha təsdiqlənib. Sənəddə təşkilatın regional sülhün və çoxtərəfli əməkdaşlığın təşviqi üçün konstruktiv platforma kimi rolu vurğulanıb.

Məqalədə həmçinin Macarıstanın Baş naziri Viktor Orbanın çıxışına da yer ayrılıb. V.Orbana istinadla qeyd edilib ki, sammitdə iştirak edən güclü liderlər birgə layihələr və gələcək üçün strateji planlar ətrafında fikir mübadiləsi aparıblar. Azərbaycan Prezidenti İlham Əliyevin əldə etdiyi nailiyyətlər, ölkəsində həyata keçirilən bərpaolunan enerji layihələri, sülh və əməkdaşlığa verdiyi əhəmiyyət göstərir ki, bu regionda uzaqgörən və uğurlu siyasət həyata keçirilir.

## *Rektor:* "Qəbələdə keçirilən Zirvə görüşü türk dünyasının gələcək inkişafı ilə bağlı strateji baxışın göstəricisidir"

**"Türk dövlətlərinin effektiv təhlükəsizlik və diplomatik mexanizmləri bir sıra regional və qlobal böhranlar fonunda ən mühüm zərurətdir. Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Dövlət Başçıları Şurasının (TDT) XII Zirvə Görüşünün mərkəzi mövzusu kimi bu məsələnin seçilməsi faktı Qəbələdəki müzakirələrin bütün türk dünyası üçün tarixi əhəmiyyətini bir daha vurğulayır".**



Bu fikri AZƏRTAC-a Türkiyənin Kayseri Universitetinin rektoru, professor Kurtuluş Karamustafa bildirib.

O, Qəbələdə keçirilən TDT Zirvə görüşünün yekun qərarlarının bütün türk dünyasının gələcəyinin formalaşmasına mühüm töhfə verəcəyinə əminliyini ifadə edib. "Əminəm ki, türk dövlətlərinin, xüsusən enerji, nəqliyyat və müdafiə kompleksi, eləcə də rəqəmsal infrastruktur və mədəniyyət sahələrində birgə səyləri TDT-nin qlobal müstəvidə effektivliyini daha da artıracaq", - deyə professor qeyd edib. Universitet rektoru Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Qəbələ Zirvə görüşündəki çıxışına diqqət yönəldib: "BMT Təhlükəsizlik Şurası çoxsaylı insan dramlarına biganə qalır ki, bu da beynəlxalq arenada əxlaqi prinsiplərin qorunub saxlanması ilə bağlı ciddi suallar yaradır". Rektor Yaxın Şərqdəki vəziyyəti misal çəkib.

Kurtuluş Karamustafa qeyd edib ki, Qəbələdə keçirilən Zirvə görüşü türk dövlətlərinin liderlərinin kibertəhlükələrdən iqlim böhranına qədər, regional təhlükəsizlikdən qlobal çağırışlara qədər bir çox sahədə genişmiqyaslı əməkdaşlıq və birgə fəaliyyət əzmini nümayiş etdirmək üçün platforma rolunu oynayıb.

K.Karamustafanın sözlərinə görə, Qəbələ Zirvə görüşünün digər mühüm nəticəsi Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) fəaliyyətinin genişləndirilməsinə dair razılığın əldə olunması olub.

## *TBMM-in sabiq deputatı:* "Qəbələ Zirvəsində müzakirə olunan mövzular məhsuldar nəticələr vəd edir"

**Türk Dövlətləri Təşkilatının (TDT) Azərbaycanın Qəbələ şəhərində keçirilən 12-ci Zirvə görüşündə iştirak edən liderlərin çıxışları, ikitərəfli görüşlər və aparılan müzakirələr təşkilatın inkişafı istiqamətində mühüm nəticələr ortaya qoydu. Azərbaycan Prezidenti İlham Əliyevin evsahibliyi ilə baş tutan bu əlamətdar toplantı keçmişlə bu günün qovuşmasını simvolizə edir və türk dövlətləri arasında dostluq, qardaşlıq, həmrəylik və ortaq əməkdaşlığın daha da gücləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.**



Bunu AZƏRTAC-a açıqlamasında Türkiyə Böyük Millət Məclisinin (TBMM) sabiq deputatı Yavuz Subaşı bildirib. Prezident İlham Əliyevin Zirvə görüşündəki çıxışına diqqət çəkən Yavuz Subaşı deyib: "Prezident İlham Əliyevin TDT ölkələrinin Azərbaycanda birgə hərbi təlim keçirməsi barədə irəli sürdüyü təklif olduqca mühüm təşəbbüsdür. Bu, təşkilat ölkələri arasında ortaq hərbi qüvvə yaradılmasının ilk addımı ola bilər. İlham Əliyevin ortaq tarix, etnik köklər, milli və mənəvi dəyərlərin türk dünyasını bir ailə kimi birləşdirdiyini vurğulaması da son dərəcə önəmlidir. Onun tərəfindən irəli sürülən digər mühüm layihə isə 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayın davamı mahiyyətində yeni böyük bir türkoloji qurultay təşkil olunmasıdır".

Yavuz Subaşı əlavə edib ki, TDT artıq sadəcə bir əməkdaşlıq platforması deyil, region ölkələri arasında güclü əməkdaşlıq yaradan geosiyasi mərkəzlərdən birinə çevrilib. Zirvədə "TDT+" əməkdaşlıq formatının yaradılması təşəbbüsü, TÜRKSOY-un gücləndirilməsi, regionda TDT dövlətlərinin qarşılaşa biləcəyi təhdidlər, münaqişələr və beynəlxalq hüquq pozuntuları qarşısında birgə fəaliyyət və effektiv mövqe nümayişi barədə razılıq əldə olunub. Bununla yanaşı, fövqəladə hallar və fəlakətlərin idarə olunması, elm, texnologiya, ətraf mühit və mədəniyyət sahələrində əməkdaşlıq qərarları da qəbul edilib.

"Bütün bu qərarlar türk dünyasının birliyi və təşkilatın beynəlxalq münasibətlər sistemindəki mövqeyi baxımından olduqca vacibdir. XXI əsrin "Türk dünyası əsri" olması baxımından Qəbələ Zirvəsi məhsuldar nəticələr vəd edir. Qırğızıstan Prezidentini dövrə sədrliyini uğurla yerinə yetirdiyinə görə təbrik edir, bu mühüm missiyanı təhvil alan can Azərbaycana uğurlar arzulayıram", - deyə sabiq deputat vurğulayıb.

## *Türkiyəli ekspert:* "Qəbələdə keçirilən Zirvə görüşü yeni dövrə doğru strateji addımdır"

**Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Dövlət Başçıları Şurasının Qəbələdə keçirilən 12-ci Zirvə Görüşü türk dünyasının inkişafında yeni dövrə doğru atılan strateji addım oldu. Azərbaycandakı müzakirələr təşkilatın Bişkek sammitində əldə olunan nailiyyətləri möhkəmləndirərək, TDT-nin siyasi birliyini gücləndirib, türk ölkələrinin iqtisadi inteqrasiyasına və mədəni konsolidasiyasına təkan verib.**




Bu fikri AZƏRTAC-la söhbətdə Ankarada fəaliyyət göstərən Avrasiya Araşdırmaları Mərkəzinin (AVİM) analitiki Hazel Çağan Elbir söyləyib.

Onun sözlərinə görə, Qəbələ Zirvə görüşü TDT-nin təkcə regionda deyil, həm də qlobal miqyasda "yüksələn güc" olduğu faktını nümayiş etdirdi. "Türk dövlətləri ailəsi"nin mövcudluğunun anlamı dünya miqyasında daha çox hiss olunur", - deyə o, TDT-ni türk ölkələri arasında onlarla müxtəlif sahədə əməkdaşlıq üçün tələb olunan platforma adlandırıb.

Ekspert ÜDM-i 2,1 trilyon dollara çatan türk ölkələrinin iqtisadi potensialına, TDT ölkələri arasında ticarət dövriyyəsinin artdığına da diqqət çəkib, türk dövlətləri tərəfindən həyata keçirilən və təşkilatın qlobal nüfuzunu artıran çoxsaylı nəqliyyat və enerji layihələrini sadalayıb.

Onun sözlərinə görə, Qəbələdə keçirilən 12-ci TDT Zirvə görüşü türk ölkələrinin siyasi, iqtisadi və mədəni inteqrasiyasını inkişaf etdirmək üçün çox mühüm şansdır. Analitik Qəbələdə keçirilən TDT Zirvə Görüşündə özünü büruzə verən Azərbaycanın strateji liderliyi amilini vurğulayıb. "Ərazi bütövlüyünün və suverenliyinin bərpasından sonrakı dövrdə Azərbaycanın TDT məkanında mərkəzi rolu daha nəzərəçarpan olub", - deyə o əlavə edib və Qəbələ Zirvə görüşünün türk ölkələri üçün ortaq gələcəyə ümidləri gücləndirdiyini vurğulayıb.

# REGİONLAR

## Kardiologiya İnstitutu Qusarda şəhid ailələri və qazilər üçün səyyar qəbul keçirib

**Bu günlər Qusar Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə akademik C.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutunun əməkdaşları rayonun mərkəzi xəstəxanasında şəhid ailələri və qazilər üçün tibbi müayinə aksiyası keçiriblər.**



Xəstəxanaya gələn onlarla insan müayinədən keçmək üçün həkimlər tərəfindən qeydiyyata alınıblar. Aksiya ilə əlaqədar rayon rəhbərliyi, xəstəxananın əməkdaşları və digər rəsmi şəxslər girəcəkdə şəhidlərimizin xatirəsinə həsr edilmiş guşəni ziyarət edərək, onların şəkilləri önünə gül dəstələri düzüblər. Ziyarətçilərə aksiya ilə bağlı ətraflı məlumat verilərək bildirilib ki, təşəbbüsün əsas məqsədi vətən uğrunda sağlamlıqlarını itirmiş qəhrəmanlarımıza, şəhid ailələrinə peşəkar tibbi xidmət təqdim etməkdir. Bunun üçün rayon üzrə şəhid ailələri və qazilərin siyahısı müəyyənləşdirilib. Yaşlı insanlara xidmət göstərmək üçün səyyar dəstə də yaradılıb. Ucqar dağ kəndlərində yaşayan şəhid ailələri və qazilər də unudulmayıb.

Sonra RİH-in başçısı Sahir Məmmədxanov aksiyada iştirak edən şəhid ailələri və qazilərlə görüşüb, onlarla söhbət edib, problemlərini dinləyib. İştirakçılar xidmətə görə minnətdarlıqlarını bildiriblər.

Aksiya çərçivəsində 23 şəhid və 24 qazi ailəsinin üzvləri, 18 qazi - ümumilikdə 65 nəfər müxtəlif tibbi xidmətlərdən yararlanıb. Onlara laborator analizlər, ultrasəs müayinəsi (USM), elektrokardioqrafiya (EKQ), exokardioqrafiya (EXO-KQ), eləcə də kardioloq, nevropatoloq və endokrinoloq müayinələri aparılıb.

Qeyd etmək lazımdır ki, aksiyada iştirak edən 32 nəfər birbaşa institutun arterial hipertenziya şöbəsinin rəhbəri, Kardiologiya kafedrasının müdiri, professor Tofiq Cahangirov tərəfindən müayinə olunub.

Aksiyanın sonunda ilin sonunadək daha bir neçə dəfə belə tədbirlərin keçirilməsi qərara alınıb.

*A.ƏLİYEV,*
*"Azərbaycan"*

## Lahıcla Masallını nə birləşdirir

**Tarixin dərinliklərindən süzülüb gələn, mədəni irsimizin nadir nümunələrindən olan misgərlik sənəti həm estetik gözəlliyi, həm də zəhmət və bacarıq tələb edən mürəkkəb texnikası ilə seçilir. Bu sənət təkcə bir peşə deyil, həm də xalqımızın zəngin keçmişinin, zövqünün, əllərinin qüdrətinin əyani göstəricisidir.**

Qədim Dəmir dövrünə qədər gedib çıxan misgərlik sənəti əsrlər boyu nəsildən-nəslə ötürülərək bu günümüzə qədər gəlib çatıb. Misgərlərin hazırladıqları qazan, məcməyi, tava, teşt və digər məişət əşyaları, habelə dekorativ suvenirlər həm funksional, həm də estetik baxımdan dəyərli hesab olunur.

Misgərlik göründüyü qədər sadə olmayan, incəlik və yüksək diqqət tələb edən bir sənətdir. Bu sənətə yiyələnmək üçün yalnız texniki bilik yox, həm də səbir, dəqiqlik və yaradıcılıq vacibdir.

Müasir dövrdə plastik və digər sintetik materiallardan hazırlanmış əşyalar bir müddət mis məmulatların yerini alsa da, bu gün insanlar yenidən təbiiliyə, sağlamlığa və estetikaya üz tutur.

Misgərliyin yaşadılmasında və gələcək nəsillərə ötürülməsində fədakar sənətkarlarımızın rolu danılmazdır. Belə sənətkarlardan biri də əslən İsmayıllının Lahıc qəsəbəsindən olan Taleh Ağayevdir. Onun ailəsi təxminən 50 il öncə Masallının Boradigah qəsəbəsinə köç edib və burada misgərlik sənəti ilə məşğul olmağa başlayıb.



Talehin atası, mərhum Nurəddin kişi bu sənətlə təkcə ailəsinin dolanışığını təmin etməyib, həm də misgərliyin incəliklərini övladlarına öyrədib. Zamanla digər qardaşlar bu sənətdən uzaqlaşsalar da, Taleh ata-baba mirasına sadiq qalaraq onu qoruyub saxlayıb, ustad sənətkar kimi yetişib. Onun əl işləri təkcə Masallıda deyil, ölkəmizin müxtəlif regionlarında keçirilən sərgi və tədbirlərdə nümayiş olunur, maraq və rəğbətlə qarşılanır. Bu gün Taleh ustanın məmulatlarına hətta İran, Rusiya, Türkiyə və Almaniya kimi ölkələrdən də sifarişlər verilir. Bu onun sənətinə olan marağın və dəyərin göstəricisidir.

Misgərlik yalnız bir əşya düzəltmək deyil, tarixi yaşatmaq, mədəniyyəti qorumaq, estetik duyğunu oyatmaq və millətin kimliyini ifadə etmək deməkdir. Taleh Ağayev kimi sənətkarların fəaliyyəti isə bu qədim sənətin gələcək nəsillərə ötürülməsi baxımından misilsiz əhəmiyyət daşıyır.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

**• Pambıq yığımı**

## Havalar imkan versə, çəkilən zəhmət hədər getməyəcək

**Dünən döyüş meydanında qəhrəmanlıq nümunəsi göstərən tərtərlilər bu gün əmək cəbhəsində fərqlənirlər. Hər qarış torpaq uğrunda müqəddəs savaşda tarix yazan, ölümsaçan güllələr, raketlər, artilleriya mərmiləri başlarına dolu kimi yağsa da, bir addım geri çəkilməyən tərtərlilərin 44 günlük müharibədə yaşadıqları hər gün gerçək bir qəhrəmanlıq dastanı idi.**



Zəfərlə sonuclanan döyüşlərdə Ermənistan silahlı qüvvələri Tərtər şəhərinə və rayonun kəndlərinə minlərlə raket və artilleriya mərmisi atmış, nəticədə çox sayda yaşayış evləri, sosial obyektlər dağılmış, mülki insanlar həlak olmuş, rayon iqtisadiyyatına böyük həcmdə ziyan dəymişdir. O gərgin günlərdə Prezident İlham Əliyev və birinci Vitse-prezident Mehriban xanım Əliyeva dəfələrlə Tərtərə səfər etmiş, vəziyyətlə yerində tanış olmuş, evləri dağılan ailələrlə görüşüb zəruri tədbirlər görmüşlər. Çətin, ağrı-acılı, eyni zamanda qürurverici günlər idi.

Yaylım atəşi kimi səslənən Qələbə nidasından bizi 5 il ayırır. İndi sarsılmaz xalq-dövlət birliyinin hədəfi müharibənin vurduğu yaraları sağaltmaq, ölkəmizin iqtisadi qüdrətini daha da artırmaq, insanların güzəranını yaxşılaşdırmaq, firavanlığını təmin etməkdir. Tərtərlilər canları, qanları bahasına qoruduqları torpaqları bu gün könül rahatlığı ilə əkib-becərirlər. Dövlətin ənənəvi kənd təsərrüfatı sahələrinin, o sıradan pambıqçılığın inkişafına dəstəyi Tərtər kəndlisinə də stimul verib. Son illər rayonun təsərrüfatlarında pambıqçılıq sahəsində böyük uğurlara imza atılır, yüksək məhsuldarlığa nail olunur.

Bu günlər rayonun təsərrüfatlarında məhsul yığımının qızğın çağıdır. Məlumat üçün bildirək ki, cari ilin məhsulu üçün 2,668 hektara çiyid səpilib. Becərmə zamanı aqrotexniki qaydalara ciddi əməl olunmasının nəticəsidir ki, tarlalar bəyaz libasa bürünüb. Böyük zəhmət bahasına yetişdirilmiş məhsulun tez və itkisiz yığılıb təhvil verilməsi üçün əmək ehtiyatları və texniki vasitələr səfərbər edilib. Məhsul yığımında texnikanın imkanlarından maksimum istifadə olunur. Habil İbrahimovun, Vidadi Vəliyevin, Sənan Qurbanovun, Firuz Rzayevin, Vaqif Balakişiyevin, Suliddin Ələkbərovun, Fazil Vəliyevin rəhbərlik etdikləri təsərrüfatlar yığımda daha çox fərqlənirlər. Bir çox fermerlərin nəticələri yüksəkdir - hər hektardan orta məhsuldarlıq 50-55 sentner!

İndi Tərtər kəndlisinin qayğıları xeyli yüngülləşib. Torpaqlarımız işğalda olan illərdə tərtərli əkinçilər həmişə su problemi yaşayıblar. Ermənilər suvarma suyuna daha çox ehtiyac duyulduğu yaz-yay aylarında Sərsəng və Suqovuşan su anbarlarının qapılarını endirir, qızmar günəş altında min hektarlarla bağ-bağçanı, taxil zəmilərini, pambıq tarlalarını, bostan-tərəvəz sahələrini susuz qoyurdular.

Zəfər sayəsində Tərtər kəndlisinin bu problemi də həll oldu. Rayonun təsərrüfatları indi ehtiyac olan qədər su ala bilirlər.

Tərtərdə pambıqçılığın inkişafını stimullaşdıran bir əsas şərt də dövlətin ayırdığı subsidiyadır. Pambıqçılıqda ötən ilin nəticələrinə görə məhsul istehsalçılarına 1 milyon 376,7 min manat subsidiya verilmişdir.

Payızın qeyri-sabit keçən hava şəraiti müəyyən çətinliklər yaratsa da, pambıqçılar məhsul yığımı üçün əlverişli olan hər saatdan səmərəli istifadə etməyə çalışırlar. Hədəfə aparan yolda ilk addımlar inamla atılır. Günü-gündən yığım surəti artır. Bəyaz donlu tarlalarda hələ çox məhsul var. Pambıq boldusa kəndlinin qazancı da çox olacaq, güzəranı daha da yaxşılaşacaq. Qoy olsun!

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Bütün risklərə baxmayaraq...

### Goranboyda pambıqçılığa maraq azalmır



**Goranboyda kənd təsərrüfatının ənənəvi və strateji sahələrindən biri hesab edilən pambıqçılığa maraq dövlətin aqrar sahəyə göstərdiyi dəstək hesabına azalmır. Bu meyil özünü ilk növbədə torpaq icarəsi üzrə bağlanmış müqavilələrin sayında və əhatə etdiyi sahənin həcminin genişlənməsində göstərir.**

Aparılmış statistik təhlillərə əsasən, keçən il rayon ərazisində pambıq əkini məqsədilə fiziki və hüquqi şəxslərlə ümumilikdə 1983,3 hektar torpaq sahəsi üzrə icarə müqavilələri bağlanmışdır. Müqayisə üçün qeyd edək ki, bu göstərici əvvəlki illə müqayisədə 533,3 hektar, yəni 36,77 faiz artım deməkdir.

Xatırladaq ki, keçən il pambıq sahələrindən ümumilikdə 4 min 125,64 ton məhsul toplanmış, orta məhsuldarlıq 28,43 sentner olmuşdur ki, bu da pambıqçılıqda optimal nəticələrdən sayılır. İcarəyə verilmiş torpaqların səmərəli istifadəsi, müasir becərmə texnologiyalarının tətbiqi və fermerlərə göstərilən metodiki dəstək məhsuldarlığın sabitliyini təmin etmişdir.

Goranboy pambıqçıları cari ildə əkin sahələrini bir qədər də artırmışlar. Qeyd edək ki, bu mövsüm rayonda pambıqçılıqla "Azərpambıq", "Prime Cotton", "Goran Cotton" və "Azərşəkər" MMC-lər məşğul olur. Pambıqçılığın inkişaf etdiyi əsas ərazilər isə Faxralı, Qaramusalı, Səfikürd, Xan Qərvənd, Əlirzalı, Yeniyol, Balakürd, Boluslu, Nərimanlı, Qarapirimli, Goranlı, Quşçular, Gülməmmədli, Düzqışlaq və Aşağı Ballıqaya kəndləridir.

Hazırda yığım gedir, yığılmış pambıq qəbul məntəqələrinə daşınır. İlk yığım Yasin Zeynalova məxsus təsərrüfatda başlamışdır. Təsərrüfat sahibi "Goran Cotton" MMC ilə müqavilə bağlamışdır. Y.Zeynalov deyir ki, sentyabrda yağan yağışlar qozaların açılmasını gecikdirsə də, ruhdan düşmürlər.

Rayonda məhsul toplanışı getdikcə sürətlənir. Fermerlər çalışırlar ki, min bir zəhmətlə yetişdirdikləri məhsulu vaxtında və itkisiz toplasınlar. Çünki payızdır, havaya etibar yoxdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Sumqayıt bulvarı: onu yerli sakinlərə və qonaqlara sevdirən səbəblər çoxdur

**Bu gün ölkədə həyata keçirilən infrastruktur layihələrinin ən çox reallaşdığı şəhərlərdən biri də Sumqayıtdır. Sərmayə qoyuluşu baxımdan da Sumqayıt birincilər sırasındadır. Həmin layihələrdən biri də Sumqayıt Dənizkənarı bulvarının və şəhər çimərliyinin yaradılmasıdır.**



Xəzərin dalğalarının çırpıldığı sahillərdə belə bir bulvarın salınması ölkəmizdə insanların sağlamlığına, istirahətinin xoş və mənalı keçməsinə göstərilən qayğının təzahürüdür. Bu kompleks eyni zamanda Sumqayıtın simasının daha da gözəlləşdirilməsi baxımından əhəmiyyətlidir.

Sumqayıt bulvarının ümumi sahəsi 110 hektara yaxındır. 5 kilometrdən artıq məsafə boyu uzanan bulvarın ərazisi dəniz səviyyəsindən 2,5 metr yüksəklikdə yerləşir. Ərazi boyu 1,5 metr hündürlüyündə istinad divarı tikilib. Bulvarda 55 hektar ərazidə yaşıllıq zolağı salınıb, 160 mindən çox ağac və dekorativ kol, 2 milyon gül və çiçək əkilib.

Bulvarda kiçikölçülü gəzinti avtobusları üçün avtomobil yolu salınıb. Bununla yanaşı, 4 kafe-çay evi, istirahət obyektləri, attraksionlar, kinoteatr, tennis kortu, futbol meydançaları, yay musiqi səhnəsi, mağazalar və uşaqlar üçün əyləncə mərkəzləri yaradılıb.

Bulvar kompleksində suvarma sistemləri avtomatlaşdırılıb. Bu sistem yaşıllıq zolaqlarının qorunmasında əvəzsiz rol oynayır. Həmçinin 76 hektar ərazidə kommunikasiya xətləri çəkilib. Müxtəlif ölçülü 1500 işıq dirəyi və digər işıqlandırma sistemləri quraşdırılıb. Sakinlərin rahat istirahəti üçün 600-dən artıq oturacaq qoyulub. Oturacaqların qarşısında tariximizin müxtəlif nümunələri quraşdırılıb. Nağıl qəhrəmanlarımız, at və fayton, idman aksesuarları abidələşdirilib.

Bulvarın ərazisində müxtəlif yerlərdə 50 kölgəlik yaradılıb. Ötən illərdə ağaclar qollu-qanadlı olub və yay ayları buraya təşrif buyuranlar həmin kölgəlikdə istirahət edirlər. Bulvarda inşa edilən 5 rəngli fontan da ziyarətçilərin zövqünü oxşayır.

Burada velosipedçilər üçün xüsusi hərəkət zolağı və piyada yolu da salınıb. 4,2 kilometr yola asfalt döşənib, 30 hektar əraziyə daş döşənib. Ərazidə Bayraq meydanı tikilib, sahildə gəzinti gəmilərinin yan alması üçün dənizin içərisinə doğru 500 metr uzunluğunda tərsanənin tikintisinin aparılması nəzərdə tutulub.

Xəzərin sahilindəki bu kompleks şəhərin simasının daha da gözəlləşdirilməsi baxımından olduqca əhəmiyyətlidir. Bu cür layihələrin icrası bir daha sübut edir ki, Sumqayıtın abadlaşdırılması istiqamətində görülən işlər davamlıdır, onlar yüksək keyfiyyətlə və vaxtında yerinə yetirilir. Bir sözlə, müasir üslubda, orijinal dizaynda yaradılan həmin istirahət məkanı Sumqayıtın görməli yerlərinə daha bir ünvanın da əlavə edilməsi deməkdir.

Hazırda Xəzərin geri çəkilməsi səbəbindən bulvarda xoşagəlməz qoxu əmələ gəlib. Odur ki, əlaqədar təşkilatlar geri çəkilən əraziyə torpaq daşınmasına, təmizlik işlərinin genişləndirilməsinə başlayıblar. Onlarla maşın torpaq daşınaraq həmin əraziyə yayılır. Güman olunur ki, qoxu çəkiləcək.

Dəniz sahilində yerləşdiyi üçün Sumqayıt da küləkli şəhərdir. Buna baxmayaraq, sumqayıtlılar təkcə isti yay günlərində deyil, digər fəsillərdə də bulvara gəzintiyə çıxırlar. Hətta yağışlı, qarlı günlərdə də bulvarda yüzlərlə insana rast gəlmək mümkündür. Payız olmasına baxmayaraq, bulvarda insan seli azalmır. Xüsusən yaxınlıqdakı yaşayış massivinin sakinləri öz istirahətlərini bulvarda keçirməyə üstünlük verirlər.

Ötən dövrdə Sumqayıt bulvarının gözəlliyindən dünyanın müxtəlif yerlərində də xəbər tutublar. Bulvara "Global Trade Leaders" klubunun "Keyfiyyətə görə Beynəlxalq Avropa mükafatı" (İnternational Europe Award for Quality) verilib. Mükafatı təsisatın baş katibi Rikardo Lopes qurumun Parisin "Meridien Etoile" hotelində keçirilən forumunda Sumqayıt nümayəndə heyətinə təqdim edib. Tədbirdə vurğulanıb ki, Sumqayıt bulvarı Azərbaycanda gedən quruculuq işlərinin bariz nümunəsidir. 9 il ərzində bulvar onlarla beynəlxalq tədbirin iştirak məkanına çevrilib.

Amma Sumqayıt bulvarının üstünlüyü təkcə sadalananlar deyil. Bu gün Sumqayıt bulvarında 500-dən çox yeni iş yeri açılıb. Yaxın bir neçə ildə işçilərin sayının 1000 nəfərə çatacağı gözlənilir.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

# "Bakı Kristal Zalı" MMC

## 31.12.2024-cü il tarixinə maliyyə hesabatları və Müstəqil Auditor Hesabatı

**MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ ÜZRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI**

31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Müstəqil auditor hesabatında şərh edilən müstəqil auditorların məsuliyyətinə uyğun oxunmalı olan bu hesabat "Bakı Kristal Zalı" MMC-nin maliyyə hesabatları ilə bağlı rəhbərliyin müvafiq məsuliyyətini müstəqil auditorların məsuliyyətindən fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik "Bakı Kristal Zalı" MMC-nin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini, əməliyyatlarının nəticələrini və həmin tarixdə başa çatmış il üzrə pul vəsaitlərinin hərəkətini, kapitalda dəyişikliklər hesabatını düzgün və mövcud qanunvericiliyə müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıdakılar üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi
- Mövcud qanunvericiliyə uyğunluğun bəyan edilməsi və əgər əhəmiyyətli kənarlaşmalar varsa, bu halların maliyyə hesabatlarında açıqlanması və izah edilməsi
- Əgər yaxın gələcəkdə "Bakı Kristal Zalı" MMC işini normal şərtlər altında davam etdirəcəksə, hesabat tarixinə maliyyə hesabatlarının daimlik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- "Bakı Kristal Zalı" MMC-nin daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi
- Maliyyə hesabatlarının mövcud qanunvericiliyə uyğun olaraq düzgün hazırlanması və maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi
- Mümkün imkanlardan istifadə edərək "Bakı Kristal Zalı" MMC-nin aktivlərinin mühafizə edilməsinin təşkil olunması
- Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

Baş Direktor — Böyük mühasib

M.Y.

BKR IŞIK CONSULTING

AZ1073, Bakı şəh., M.Müşfiq, 15/17
Tel./Faks: (+99412) 510-83-45
E-mail: baku_office@bkrisik.com
www.bkrisik.com, www.bkr.com

An independent member of BKR International

**MÜSTƏQİL AUDİTOR HESABATI**

"BAKI KRISTAL ZALI" MMC

RƏY

"BAKI KRISTAL ZALI" MMC (bundan sonra cəmiyyət) 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətinə dair hesabatından, məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditi aparılmışdır.

***Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Azərbaycan Respublikasının Mühasibat Uçotu Haqqında Qanununa uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.***

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandlrmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Azərbaycan Respublikasının Mühasibat Uçotu Haqqında Qanununa uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və idarəetməyə məsul şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub – olmadığına dair kafi əminlik əldə etmək və rəyin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir

**İdarəedici Partnyor**
**E. Əliyev**

Bakı şəhəri, Azərbaycan Respublikası

21.06.2025

### "Bakı Kristal Zalı" MMC

**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**

31 dekabr 2024-cü il tarixə

AZN

| Bölmə və maddələrin adı | Qeyd | 2024 | 2023 |
|---|---|---|---|
| ***Aktivlər*** | | | |
| ***Cari aktivlər*** | | | |
| Pul vəsaitləri və onların ekvivalrentləri | | 1 655 856,40 | 1 409 199,10 |
| Qısamüddətli debitor borcları | | 2 289 985,63 | 2 205 942,19 |
| Ehtiyatlar | | 2 871 771,07 | 2 706 768,18 |
| **Cəmi cari aktivlər** | | **6 817 613,10** | **6 321 909,47** |
| ***Uzunmüddətli aktivlər*** | | | |
| Torpaq, tikili və avadanlıq | | 165 403 337,36 | 168 211 765,96 |
| Qeyri maddi aktivlər | | 247,50 | 275,00 |
| İnvestisiyalar | | | |
| Uzunmüddətli debitor borcları | | | |
| Sair uzunmüddətli maliyyə aktivləri | | 20 052 056,41 | 17 615 709,92 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **185 455 641,27** | **185 827 750,88** |
| **Cəmi aktivlər** | | **192 273 254,37** | **192 149 660,35** |
| ***Öhdəliklər və kapital*** | | | |
| ***Cari öhdəliklər*** | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| Vergi və sairə məcbiri ödənişlər üzrə öhdəliklər | | 647 296,79 | 523 267,27 |
| Qısamüddətli kreditor borcları | | 45 548,59 | 45 984,09 |
| Sair qısamüddətli öhdəliklər | | 0,00 | 0,00 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **692 845,38** | **569 251,36** |
| ***Uzunmüddətli öhdəliklər*** | | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| Uzunmüddətli kreditor borcları | | | |
| Sair uzunmüddətli öhdəliklər | | | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **0,00** | **0,00** |
| ***Xalis aktivlər və kapital*** | | | |
| Nizamnamə kapitalı | | 191 567 449,92 | 191 567 449,92 |
| Əlavə kapital | | | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 12 959,07 | 12 959,07 |
| Yığım fondu | | | |
| İstehlak fondu | | | |
| **Cəmi xalis aktivlər və kapital** | | **191 580 408,99** | **191 580 408,99** |
| **Cəmi öhdəliklər və kapital** | | **192 273 254,37** | **192 149 660,35** |

Baş Direktor

Böyük mühasib

M.Y.

### "Bakı Kristal Zalı" MMC

**Məcmu mənfəət və zərər haqqında hesabat**

31 dekabr 2024-cü il tarixə

AZN

| Bölmə və maddələrin adı | Qeyd | 2024 | 2023 |
|---|---|---|---|
| *Gəlirlər* | | | |
| Əsas əməliyyat gəlirləri | | **617 199,09** | **321 976,79** |
| Faiz gəlirləri, royalti və dividendlər | | | |
| Sair əməliyyat gəlirləri | | 4 067,80 | |
| Digər gəlirlər | | 2 076 000,00 | 3 200 000,00 |
| **Cəmi əməliyyat gəlirləri** | | **2 697 266,89** | **3 521 976,79** |
| *Xərclər* | | | |
| Material xərcləri | | 39 010,76 | 145 323,39 |
| Kommersiya xərcləri | | | |
| İnzibati xərclər (ə/haqqı, amortizasiya, digər) | | 4 264 021,97 | 1 744 973,70 |
| əmək haqqı xərcləri və sosial ayirmalar | | 1 450 971,42 | *1 475 223,70* |
| köhnəlmə və amortizasiya xərcləri | | 2 813 050,55 | *269 750,00* |
| Maliyyə xərcləri | | | |
| Sair əməliyyat xərcləri | | 799 054,78 | 1 625 506,59 |
| **Cəmi əməliyyat xərcləri** | | **5 102 087,51** | **3 515 803,68** |
| Əməliyyat mənfəəti (zərərlər) | | **-2 404 820,62** | **6 173,11** |
| Ümumi mənfəət (zərər) | | **-2 404 820,62** | **6 173,11** |
| Mənfəət vergisi | | **0,00** | **1 234,62** |
| **Hesabat dövrünün sonuna maliyyə nəticələri** | | **-2 404 820,62** | **4 938,49** |

Baş Direktor

Böyük mühasib

M.Y.

### "Bakı Kristal Zalı" MMC

**Kapitalda dəyişikliklər hesabatı**

31 dekabr 2024-cü il tarixə

AZN

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət (Ödənilməmiş zərər) | Məqsədli maliyyələşmədən daxilolma | Cəmi |
|---|---|---|---|---|
| **01 yanvar 2024-cü il tarixə qalıq** | **191 567 449,92** | **-17 602 750,85** | **0,00** | **173 964 699,07** |
| Daxil olub | | -2 404 820,62 | 2 076 000,00 | **-328 820,62** |
| İstifadə olunub | | 31 525,87 | 2 076 000,00 | **2 107 525,87** |
| **31 yanvar 2024-cü il tarixə qalıq** | **191 567 449,92** | **-20 039 097,34** | **0,00** | **171 528 352,58** |

Baş Direktor

Böyük mühasib

M.Y.

### "Bakı Kristal Zalı" MMC

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat**

31 dekabr 2024-cü il tarixə

AZN

| | 2024 | 2023 |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Müştərilərdən daxilolmalar | 1 104 369,83 | 1 373 569,24 |
| Büdcədən daxilolma, qrant və ianələr nəticəsində daxilolmalar | 2 076 000,00 | 3 200 000,00 |
| Sair daxil olmalar | | |
| Mal və xidmətlərə görə təchizatçılara ödənişlər | 1 346 509,24 | 2 781 494,12 |
| İşçilərə və onların adından pul vəsaitlərinin ödənişləri | 1 407 036,13 | 1 438 591,28 |
| Vergi ödənişləri | 180 167,16 | 254 920,90 |
| Digər əməliyyat fəaliyyətilə bağlı pul vəsaitləri ödənişləri | | |
| **Əməliyyat fəaliyyətləri üzrə xalis pul vəsaitlərinin artımı (azalması)** | **246 657,30** | **98 562,94** |
| ***İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti*** | | |
| Əsas vəsaitlərin və Q/maddi aktivlərin satılmasından daxil olanpul mədaxili | | |
| Digər təsərrüfat subyektlərinin satılmasından daxil olan pul vəsaitləri | | |
| Kreditlərin qaytarılmasından yaranan pul vəsaitlərinin mədaxili | | |
| Dividendlər və gəlirin digər oxşar növləri şəklində pul vəsaitlərinin daxilolmalrı | | |
| Faiz daxilolmaları | | |
| **Cəmi investisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | **0,00** | **0,00** |
| ***Maliyyələşdirmə fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti*** | | |
| Nizamnamə kapitalına və ehtiyat fondlarına ayırmalar üzrə daxilolmalar | | |
| Qiymətli kağızların buraxılışından daxilolmalar | | |
| Borc şəklində alınmış vəsaitlərə görə geri qaytarmalardan məxaric | | |
| **Cəmi maliyyələşdirmə fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | **0,00** | **0,00** |
| **Cəmi mədaxil olunan pul** | **3 180 369,83** | **4 573 569,24** |
| **Cəmi məxaric olunan pul** | **2 933 712,53** | **4 475 006,30** |
| **Dövrün əvvəlinə olan qalıq** | **1 409 199,10** | **1 310 636,16** |
| **Dövrün sonuna qalıq** | **1 655 856,40** | **1 409 199,10** |
| **Pul vəsaitlərinin artması (azalması)** | **246 657,30** | **98 562,94** |

Baş Direktor

Böyük mühasib

M.Y.

**2024-cü il üzrə maliyyə hesabatlarının auditinə dair yekun sənədlərin**

**TƏHVİL-QƏBUL AKTI**

«İcraçı» "BKR IŞIK Konsaltinq" MMC və «Sifarişçi» "Bakı Kristal Zalı" MMC, bu Aktı ona görə tərtib edirlər ki, «İcraçı» tərəfindən 2024-cü il üzrə maliyyə hesabatlarının auditi aparılmışdır və Audit Hesabatı təhvil verilir.

| **Təhvil verdi:** | **Təhvil aldı:** |
|---|---|
| «İcraçı» | «Sifarişçi» |
| **"BKR IŞIK Konsaltinq" MMC** | **"Bakı Kristal Zalı" MMC** |
| **Direktor** | **Baş Direktor** |
| **E. Əliyev** | **B. Dadaşova** |
| M.Y. | M.Y. |

# Dənizkənarı Milli Park "Green Flag Award" beynəlxalq mükafatına layiq görülüb




**Dənizkənarı Milli Park nüfuzlu "Green Flag Award" beynəlxalq mükafatına layiq görülüb.**

Mükafat dünyanın ən mötəbər park idarəçiliyinin qiymətləndirilməsi sistemlərindən biri kimi, ictimai istirahət məkanlarında yüksək idarəetmə standartlarını, cəmiyyət üçün əlçatan, təhlükəsiz və baxımlı, ekoloji baxımdan dayanıqlı yaşıl ərazilərin saxlanması və inkişaf etdirilməsini qiymətləndirir.

AZƏRTAC xəbər verir ki, Dənizkənarı Milli Parkın "Green Flag Award"a namizədliyi bir neçə mərhələdən ibarət beynəlxalq qiymətləndirmə prosesi çərçivəsində həyata keçirilib. Parkın saxlanma və idarəetmə sistemi, ətraf mühit siyasəti, xidmət strukturu, yaşıllaşdırma və təmizlik standartları ilə bağlı əhatəli müraciət və sənədlər toplusu qiymətləndirilib. Məlumatlar mükafatın beynəlxalq ekspertlərdən ibarət münsiflər heyəti tərəfindən dəyərləndirilib və yekun mərhələdə sözügedən münsiflərin iştirakı ilə 30-a yaxın meyar üzrə bilavasitə Milli Park ərazisində ətraflı monitorinq və qiymətləndirmələr aparılıb.

Unikal tarixi, təbii-ekoloji və mədəni kompleks kimi Dənizkənarı Milli Parkın qiymətləndirilməsi prosesində onun estetik əhəmiyyəti, Bakı şəhərinin tarixini və müasir inkişafını əks etdirməklə unikal şəhər mühiti yaratması, ictimai əhəmiyyəti, habelə saxlanması və idarə edilməsində dövlət tərəfindən tətbiq edilən unikal idarəetmə modeli xüsusi qeyd olunub.

Qeyd edək ki, Dənizkənarı Milli Park öz unikallığı, ekoloji və ictimai əhəmiyyəti, həmçinin saxlanması və qorunması sahəsindəki uğurlarına görə ötən il Niderlandda "International Large Urban Parks Award" (Beynəlxalq Böyük Şəhər Parkları Mükafatı) mükafatına da layiq görülüb.

"Green Flag Award" proqramı 1996-cı ildə təsis edilmiş və hazırda 20-dən artıq ölkədə tətbiq olunan beynəlxalq ekoloji qiymətləndirmə sistemidir. Mükafat yalnız yaşıllıqların qorunması, təmizlik və təhlükəsizlik, infrastrukturun vəziyyəti, idarəetmə səmərəliliyi, təbiətə qayğı, ictimai iştirak və inklüzivlik kimi çoxsaylı meyarlar üzrə yüksək göstəricilər əldə edən park və istirahət məkanlarına təqdim olunur.

# Ermənistanda ixrac sahəsində böhran yaşanır

**Ermənistanı "xoşbəxt ölkə" kimi qələmə verməyə səy göstərən baş nazir Nikol Paşinyanın cəhdlərinə baxmayaraq, ölkədə yaranan acınacaqlı vəziyyət əsl reallıqları əks etdirir və yalanları bir daha üzə çıxarır. Xüsusilə postmüharibə dövründə yaranan mövcud sosial-iqtisadi durum, Azərbaycanla sülh müqaviləsinin imzalanmasını müxtəlif bəhanələrlə uzadan ölkədə əhalinin yaşayış səviyyəsinin daha böyük sürətlə pisləşməkdə olduğunu göstərir.**

İstənilən ölkədə sənayenin bərpası, ilk olaraq ölkəyə qoyulan investisiya və ayrılan kreditlər hesabına təşəkkül tapır. İndi isə gəlin baxaq - müharibədən sonra Ermənistana sərmayə qoyan hər hansı bir investorla rastlaşan olubmu? Əksinə, müharibəyə qədər ölkədə mövcud olan azsaylı investorlar Paşinyan hakimiyyətinə olan inamsızlıq üzündən Ermənistanı tərk ediblər. Deməli, Ermənistanın "yüksəlişdə" olan sənaye istehsalı investorlar tərəfindən aşağı səviyyədə qiymətləndirilib.

"Hayeli.am" nəşri yazıb ki, 2025-ci ilin ilk yeddi ayı ərzində Ermənistanın ixrac sahəsində qeydə alınan təxminən 50 faiz kəskin azalma yalnız ölkənin xarici ticarətinin struktur zəifliklərini deyil, həm də yeni iqtisadi reallıqlara hazır olmadığını üzə çıxarır. Nəşrə görə, Ermənistan Statistika Komitəsinin dərc etdiyi rəqəmlər ilk baxışdan şok effekti yaradır, amma onların dərin təhlili aydın göstərir ki, Ermənistanın ixrac strukturu uzun illər ərzində ciddi şəkildə çox dar məhsul qrupları və coğrafi istiqamətlər üzərində cəmlənmiş vəziyyətdə qalıb. Son illərdə qeydə alınan artımlar və ümumi həcmlər də əsasən sabit sənaye inkişafı və ya yeni bazarların fəthi ilə deyil, xüsusilə qızıl sektorunda müvəqqəti təkrar ixrac imkanları ilə bağlı olub: "Ermənistandan ümumi ixrac həcminin təxminən 50 faiz azalması ilk növbədə Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) qızıl ixracının düşməsi ilə bağlıdır. Əgər 2024-cü ilin eyni dövründə BƏƏ-yə əsasən qızıl olmaqla, təxminən 4 milyard dollar dəyərində məhsul ixrac olunmuşdusa, bu il göstərici 1,2 milyard dollara enib, 68,7 faiz azalma qeydə alınıb. Bu, əsas amildir, çünki son iki ildə Ermənistanın ixrac göstəriciləri Rusiya-Ermənistan-BƏƏ-nə qızıl təkrar ixrac sxemləri ilə süni şəkildə şişirdilmişdi. Faktiki olaraq Rusiyadan gətirilən qızıl ölkədə qalmayıb, BƏƏ-yə, qismən də Çinə və Honq Konqa ixrac olunub, bu da ixrac rəqəmlərinin kəskin artımını təmin edib. 2025-ci ildə isə bu sxemin işini məhdudlaşdıran xarici siyasət yeni məhdudiyyətləri, nəzarətin sərtləşməsi və mümkün beynəlxalq təzyiqlər iqtisadiyyatın real sənaye potensialını və xarici ticarət strukturlarının problemlərini dərhal üzə çıxardı".

Nəşr qeyd edir ki, qızıl ixracının azalması Çinə ixrac həcminə də ciddi təsir göstərib: "Bu il Ermənistan Çinə 362 milyon dollar dəyərində məhsul ixrac edib ki, bu da ötən illə müqayisədə 53,4 faiz azdır. Burada da əsasən söhbət yüksək əlavə dəyərə malik sənaye və ya emal olunmuş məhsullardan deyil, məhz qızıl təkrar ixracının azalmasından gedir. Bu fakt göstərir ki, Ermənistan ixracının əsas bazarları və məhsul strukturu bir neçə xammal və ya təkrar ixrac olunan məhsuldan asılı vəziyyətdə olub, bu da ölkə üçün beynəlxalq bazarların dəyişkənliyi, siyasi risklər və yeni məhdudiyyətlər şəraitində yüksək həssaslıq yaradır. İxracın coğrafiyası və strukturu təhlil olunanda bir neçə vacib meyil görünür. Ümumi ixracda ən böyük pay hələ də Rusiyaya düşür (36 faiz), sonrakı yeri BƏƏ (27,9 faiz) tutur, Avropa İttifaqına isə cəmi 7,8 faiz pay düşür. Rusiya Ermənistanın əsas ticarət tərəfdaşı olaraq qalır, amma Rusiyaya ixracın həcmi də 2025-ci ilin yanvar-iyulunda 5,6 faiz azalaraq, cəmi 1 milyard 592 milyon dollar olub".

Qeyd edilib ki, ixrac sahəsinin problemləri bununla bitmir. Son illərdə iqtisadiyyatda üstünlük təşkil edən ixrac məhsulları sənaye, elmi-tədqiqat və ya yüksəktexnologiyalı məhsullar yox, təkrar ixrac, xammal və yarımfabrikatlar olub. Bu vəziyyət ölkə üçün xarici məhsul dövrlərindən, valyuta dəyişmələrindən, beynəlxalq tələbin enməsindən və siyasi risklərdən asılılıq yaradır. Üstəlik, ixracın artım və ya azalmasındakı hər hansı kəskin dəyişiklik birbaşa dövlətin gəlirlərinə, ödəniş balansına və maliyyə sabitliyinə təsir edir.

İqtisadi siyasət baxımından ixracda bu dərəcədə dərin eniş sistem böhranı kimi qiymətləndirilməlidir. Bu, yalnız qısamüddətli adaptasiya addımları ilə yox, həm də uzunmüddətli institusional və struktur islahatlarla həll olunmalıdır. İxracın inkişafı üçün bazarların diversifikasiyası, istehsalın əlavə dəyərinin artırılması, innovasiyanın stimullaşdırılması, keyfiyyət və rəqabət qabiliyyətinin təmin edilməsi, beynəlxalq standartlara uyğunlaşma və logistika infrastrukturunun yenilənməsi vacibdir. Lakin Ermənistanda son illərdə qısamüddətli təkrar ixrac qazancı modeli üstünlük təşkil edib ki, bu da əsasən sənaye və ya elmi-tədqiqat bazası olmayan müvəqqəti imkanlara əsaslanır.

Nəticədə qızıl bazarının bağlanması, beynəlxalq nəzarətin sərtləşməsi, siyasi təzyiqlər və ya Rusiya bazarının qeyri-sabitliyi kimi hər hansı xarici zərbə ixrac mənzərəsini kəskin dəyişə və sistemin zəifliklərini açıq şəkildə göstərə bilər. Bu şəraitdə Ermənistanın ixrac inkişafı strategiyası köklü şəkildə yenidən nəzərdən keçirilməlidir, vurğu müvəqqəti imkanlara yox, dayanıqlı sənaye artımına, texnoloji yenilənməyə və beynəlxalq rəqabətə yönəlməlidir.

Belə vəziyyətdə iflic halında olan Ermənistan iqtisadiyyatının rəqabətə davamlılıq reytinqi aşağı düşür. Elə ötən 9 ay ərzində ölkə iqtisadiyyatının rəqabət imkanları nəzərəçarpacaq dərəcədə zəifləyib. Buna səbəb dövlət rəsmilərinin korrupsiyaya qurşanması, qanunun aliliyi ilə bağlı problemlərin həllinin tapılmaması və biznes üçün bərabər şəraitin yaradılmamasıdır. Ermənistanda məhkəmə sisteminin müstəqilliyi yarıtmaz vəziyyətdədir, vergilərin toplanmasında korrupsiya halları geniş vüsət alıb, hökumət inhisarçılığa qarşı mübarizə aparmaqda acizdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Bir ata övladından el oğluna dönənlər

## Masallıda şəhidlər Musa Mustafayev və Əlimərdan Quluzadənin anım günləri qeyd olunub

**Sıravi əsgər Musa Əlövsət oğlu Mustafayev 2001-ci il martın 23-də Masallının Xoşçobanlı kəndində dünyaya gəlib. 9-cu sinfi bitirəndən sonra Göytəpə şəhərindəki Texniki liseydə traktorçu-maşinist, çilingər-sürücü peşələrinə yiyələnib, geniş profilli ixtisaslar alıb.**



Müddətli hərbi xidmətə Cəlilabaddakı "N" saylı sərhədyanı hərbi hissədə başlayan Musa II Qarabağ müharibəsi ərəfəsində ön cəbhəyə ezam olunur, Tovuz döyüşlərində cəsurluq nümayiş etdirir, Füzulidə, Kəlbəcərdə, Cəbrayılda gedən döyüşlərdə xüsusi igidliklə vuruşur. Füzuli uğrunda döyüşlərdən birində şəhidlik zirvəsinə yüksəlir.

Beş bacının yeganə qardaşı olan 19 yaşlı Musa Mustafayev Prezidentin sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni, "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Baş leytenant Əlimərdan Fəttah oğlu Quluzadə 14 fevral 1993-cü ildə rayonun Yeddioymaq kəndində dünyaya göz açıb. Cəmşid Naxçıvanski adına Hərbi Liseyi bitirən, Heydər Əliyevin adını daşıyan Ali Hərbi Məktəbin məzunu olan Əlimərdan 2016-cı il Aprel döyüşlərində və Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli və Xocavəndin işğaldan azad olunması uğrundakı savaşlarda böyük şücaət göstərib. Füzulidə gedən ölüm-dirim savaşlarında düşmənə qan uddurub. Ağır döyüşlərdən birində qəhrəmancasına vuruşaraq şəhid olub. Ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medallarına layiq görülən şəhidin iki qız övladı yadigar qalıb.

Şəhidliyə qovuşmalarının 5-ci ildönümündə Masallı Rayon İcra Hakimiyyətinin rəhbərliyi və əməkdaşları, rayon ictimaiyyətinin nümayəndələri, şəhid ailələri və din xadimləri hər iki şəhidin ailəsinə baş çəkmiş, məzarlarını ziyarət etmişlər.

Anım gününüz mübarək, igidlər! Siz Azərbaycanın qəlbində həmişə yaşayacaqsınız.

*Bir ata övladından el oğluna döndünüz.*
*Kim deyər ki, öldünüz, kim deyər ki, söndünüz.*
*Gələcək nəsillərə yetişəcək ününüz.*
*Siz bu gün də, sabah da - əsrlərlə sağsınız,*
*Bu yurdun sinəsində vüqarsınız, dağsınız!*

*Siz yazdınız millətin tarixini qan ilə.*
*Sinənizdə yurd saldı yurda atılan güllə.*
*Məzarınız tutulur min çiçəyə, min gülə.*
*Tərsiniz çiçək kimi, həmişə baharsınız!*
*Azərbaycan köksündə həmişə yaşarsınız!*

***Seyran CAVADOV,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# III MDB OYUNLARI

# Azərbaycan yarışları 184 medalla 2-ci yerdə başa vurdu













**III MDB Oyunlarının son günündə bir idman növü üzrə yarışlar keçirilib. Şəki Olimpiya İdman kompleksində bədii gimnastika yarışlarında son mükafatçılar məlum olub.**

Azərbaycanın bədii gimnastika üzrə milli komandasının üzvləri komanda hesabında halqalarla və gürzlərlə qrup hərəkətlərində bürünc medallar qazanıblar. Nur Sadıqova, Şəms Ağahüseynova, Fidan Qurbanlı və Azadə Atakişiyeva yüksək nəticə göstərərək yekunda üçüncü olublar. Azadə Atakişiyeva həmçinin çoxnövçülük yarışında gümüş medal qazanıb.

Bundan başqa, fərdi yarışda Nur Sadıqova halqalarla bürünc, Azadə Atakişiyeva topla lentlərlə hərəkətlərdə gümüş medallara sahib olublar. Fidan Qurbanlı isə gürzlərlə gümüş medala sahiblənib. Beləliklə, Azərbaycan gimnastları III MDB Oyunlarını 8 medalla başa vurublar. İdmançılarımız ümumilikdə 4 gümüş və 4 bürünc medal qazanıblar.

Bununla da Azərbaycan Oyunları ümumilikdə 184 medalla ikinci yerdə başa vurub. Medalların 33-ü qızıl, 56-sı gümüş, 95-i isə bürünc mükafatdır. İlk sırada Rusiya qərarlaşıb, 3-cü yerə Belarus sahiblənib.

Qeyd edək ki, Azərbaycan idmançıları 2021-ci ildən təşkil olunan MDB Oyunlarında ən yaxşı nəticəsinə imza atıb. Ölkəmiz I Oyunlarda 60 (16 qızıl, 16 gümüş, 28 bürünc), II-də isə 62 (10 qızıl, 17 gümüş və 35 bürünc) medal qazanmışdı.

III MDB Oyunlarında 10 ölkənin idmançıları medal əldə ediblər. Ümumilikdə, yarışlara 13 ölkənin atletləri qatılmışlar.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# "AzərEnerji" yeni təhlükəsizlik və idarəetmə sistemi qurur

## Azərbaycan enerji sistemində qabaqcıl idarəetmə texnologiyaları tətbiq ediləcək





**Ölkədə yeni yaradılan bərpaolunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyasını asanlaşdırmaq, idarəetməni qlobal standartlara uyğunlaşdırmaq və enerji sisteminin dayanıqlılığını gücləndirmək məqsədilə "AzərEnerji" ASC ABŞ-nin SEL (Schweitzer Engineering Laboratories) şirkəti ilə birgə yeni layihəyə start verib.**

Layihə çərçivəsində Azərbaycanda WAMS - Geniş Ərazi Monitorinq Sistemi **(Wide Area Monitoring System)** və WACS - Geniş Ərazi İdarəetmə Sistemi **(Wide Area Control System)** texnologiyaları tətbiq ediləcək.

"AzərEnerji" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, ilk mərhələdə əsas elektrik stansiyaları və qovşaq yarımstansiyalarında 27 ədəd xüsusi ölçü cihazı - PMU quraşdırılır. Bu cihazlar real vaxt rejimində şəbəkədəki gərginlik, cərəyan və tezliyi dəqiq ölçərək məlumatları mərkəzi serverə ötürəcək. Bununla həm Azərbaycanın enerji sisteminə, həm də Rusiya, Gürcüstan və İranla olan enerji əlaqələrinə onlayn nəzarət imkanı yaranacaq. Bu texnologiya qəza risklərini vaxtında aşkar etməyə və onların böyüməsinin qarşısını almağa şərait yaradacaq.

Beləliklə, WAMS sistemi vasitəsilə şəbəkənin vəziyyəti anlıq izlənəcək, sabitlik göstəriciləri, gərginlik dəyişmələri və enerji axınları real vaxtda görünəcək. Bu isə operatorlara daha dəqiq və operativ qərar verməyə, həmçinin bərpaolunan enerji mənbələrinin idarə edilməsini asanlaşdırmağa imkan verəcək.

WACS sistemi isə WAMS-dan daxil olan məlumatlar əsasında şəbəkədə avtomatik idarəetmə tədbirlərini həyata keçirəcək. Bu çərçivədə yükün tənzimlənməsi, generator gücünün dəyişdirilməsi, enerji axınlarının balanslaşdırılması təmin olunacaq, insan müdaxiləsi və qəza riskləri minimuma endiriləcək.

Sadə dillə desək, WAMS şəbəkənin "gözləri və qulaqları"dır — vəziyyəti izləyir; WACS isə şəbəkənin "beyni və əlləri"dir — qərar qəbul edib tədbir görür.

# Kiberpolis daha bir neçə onlayn qumar şəbəkəsini ifşa edib

**Polis əməkdaşlarının onlayn qumar və mərc oyunlarına qarşı mütəmadi olaraq profilaktik tədbirlər keçirməsinə baxmayaraq, sosial şəbəkələrdə hələ də bu cür qanunsuz hərəkətlərə rast gəlinməkdədir.**

Bu barədə AZƏRTAC-a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, DİN-in Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi tərəfindən bu istiqamətdə daha bir neçə əməliyyat-texniki tədbir hazırlanaraq həyata keçirilib. Əməliyyatlar zamanı 42 yaşlı Həsən Səbili, 33 yaşlı Orxan İbrahimli və əlbir olduğu 28 yaşlı Taleh Ağayarov, həmçinin 36 yaşlı Salman Cəfərov və tanışı 35 yaşlı Rauf Hüseynov saxlanılıblar. Adları sadalanan şəxslər ölkədən kənarda yaradılan 7isles, fastloto.com, chcplay.net internet saytlarında təşkil edilmiş qumar oyunlarının idarəçiləri ilə cinayət əlaqəsinə keçərək əlbir olublar. Daha sonra onlar həmin saytlar üzərindən sosial şəbəkələrdə "Ambassasdor", "Kazino 555", "VİP 888", "Shangrila" və digər səhifələr açaraq yerli vətəndaşları mərc oyunlarına cəlb ediblər.

Saxlanılan şəxslərin istifadə etdikləri ofis və mənzillərə baxış zamanı elektron sübutlar, bank kartları, çoxsaylı mobil nömrə və digər sübutlar aşkarlanıb. Araşdırmalarla dəstə üzvlərindən götürülən bank kartlarının ayrı-ayrı şəxslərdən müxtəlif məbləğlər müqabilində alınaraq qanunsuz pul köçürmə əməliyyatlarında istifadə edildiyi də müəyyən olunub.

Faktlarla bağlı Baş İdarədə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılıb.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**


## ALLAH RƏHMƏT ELƏSİN!

Əli, Mobil, Rafiq, Mehman və Nail Hüseynovlar, Əlövsət Əliyev, Arif Rəhimov, Yavər Abdullayev, Qəhrəman Bədəlov, İlham İbrahimov, Hidayət İsmayılov və İlham Həsənov Əməkdar idman ustası, cüdo üzrə ustalar arasında ikiqat dünya və Avropa çempionu, Rusiyanın əməkdar məşqçisi Rasim Ağamirova həyat yoldaşı

**İLAHƏ POLADXAN QIZI AĞAMİROVANIN**

Sabirabad rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4095**
**Sifariş 2052**

**Qiyməti 60 qəpik**